# EVDƏ QAL, SAĞLAM QAL!

**Prezidentə təbrik məktubları: ali nüfuzun və liderlik faktorunun bariz sübutu!**



Bax 5

**Birinci vitse-prezident Mehriban Əliyeva uşaqları təbrik edib**



Bax 4



**"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir**



# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 090 (6055) 2 iyun 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.



## "Biz sosial layihələrin heç birini ixtisara salmamışıq, onların hamısı büdcəmizdə qalır"

*Asiya İnkişaf Bankının təşəbbüsü ilə Prezident İlham Əliyevlə bu bankın rəhbərləri arasında videokonfrans keçirilib*



Bax 2

## "La Vanguardia": Azərbaycan işğal olunmuş ərazilərinin azad edilməsi üçün güc işlətməyə hazırdır

İspaniyanın populyar "La Vanguardia" qəzeti Azərbaycanın Müdafiə naziri Zakir Həsənovun işğal olunmuş ərazilərin azad edilməsinə dair bəyanatı ilə bağlı məqalə dərc edib. AZƏRTAC xəbər verir ki, məqalədə nazirin bəyanatına əsasən, Ermənistan silahlı qüvvələri tərəfindən 1991-1994-cü illər müharibəsi...



LA VANGUARDIA

Azerbaiyán amenaza a Armenia con usar la fuerza en Nagorno Karabaj

Bakú, 31 may (EFE).- El Ministerio de Defensa de Armenia declaró hoy en un comunicado que está dispuesto a utilizar la fuerza para recuperar los territorios ocupados por Ereván durante la guerra de 1991-1994.

Bax 11

## Adil Əliyev: "Sosial şəbəkələrdə təhqirlərə qarşı susmaq olmaz"



Hazırda bütün dünyada 4,54 milyard sosial şəbəkə istifadəçisi var". SİA-nın məlumatına görə, bunu Milli Məclisin dünən...

Bax 4

## Milli Məclisin növbədənkənar sessiyasının ilk iclası keçirilib

*İyunun 1-də Milli Məclisin 2020-ci il növbədənkənar sessiyasının ilk iclası keçirilib. İclası parlamentin Sədri Sahibə Qafarova açıb. Əvvəlcə Azərbaycanın dövlət himni səsləndirilib. Gündəliyin ...*



Bax 7

## Baş Prokurorluq: Yalan informasiyalar yayan KİV-lər barəsində ən ciddi tədbirlər görüləcək

Bəzi kütləvi informasiya vasitələrində Bakı Şəhər Prokurorluğunun əməkdaşı Yusif Səməndərovun guya yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxması səbəbindən vəfat etməsi...



Bax 9

## Formula 1: "Williams" komandası satışa çıxarılıb



Formula 1 çempionatının "Williams" komandasının rəhbərliyi, gözlənildiyi kimi, koronavirus pandemiyası fonunda yaranan maliyyə problemləri səbəbindən idarəetmə strategiyasına yenidən baxılacağını elan edib...

Bax 16

## Həkimdən CİDDİ XƏBƏRDARLIQ: Dondurma təhlükəli məhsuldur!



*Yetkin insanın gün ərzində yeyə biləcəyi optimal dondurma porsiyası açıqlanıb. Rusiya mətbuatı xəbər verir ki, ENT klinikasının rəhbəri Vladimir Zaitsev bu soyuq deserti hər gün yeməyin təhlükəli...*

Bax 16

**COVID-19-la mübarizə hər kəsin gündəlik həyat tərzinə çevrilməlidir**



Bax 9

**Armenianreport: Sabah müharibə olarsa kimə ümid etməliyik?**



Bax 13

**Azərbaycanda daha 168 nəfər koronavirusa yoluxdu**



Bax 8

# "Biz sosial layihələrin heç birini ixtisara salmamışıq, onların hamısı büdcəmizdə qalır"

## *Asiya İnkişaf Bankının təşəbbüsü ilə Prezident İlham Əliyevlə bu bankın rəhbərləri arasında videokonfrans keçirilib*



***İyunun 1-də Asiya İnkişaf Bankının təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bankın prezidenti Masatsuqu Asakava, vitse-prezidenti Şiksin Çen və bankın rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilib. Prezident İlham Əliyev:***

-Sabahınız xeyir, cənab prezident. Sizi görmək çox xoşdur.

Masatsuqu Asakava: Sabahınız xeyir, cənab Prezident. Çox sağ olun. Gərgin iş qrafikinizə baxmayaraq, vaxt tapıb bizimlə görüşdüyünüzə görə təşəkkür edirik. Azərbaycanla Asiya İnkişaf Bankı arasında əməkdaşlıq 1999-cu ildən bəri dərinləşməkdədir. Burada söhbət təkcə bir sıra layihələrdən getmir, həmçinin bizim birgə regional əməkdaşlığımız da mövcuddur. Asiya İnkişaf Bankının Rəhbərlər Şurasının 48-ci İllik Toplantısının 2015-ci ildə Bakıda uğurla keçirilməsi qarşılıqlı etimad və hörmət üzərində qurulmuş tərəfdaşlığımızın bariz nümunəsi olmuşdur.

Şəxsən Sizinlə və hökumətinizlə birbaşa əlaqə mən və heyətim üçün olduqca vacibdir. Biz etibarlı tərəfdaşınız olaraq COVID-19 pandemiyasının yayıldı və neftin qiymətinin kəskin aşağı düşdüyü bir vaxta Azərbaycanın atdığı addımları tam şəkildə dəstəkləyirik. Bu, bizə ölkənizin ehtiyaclarına uyğun optimal cavab tədbirləri hazırlamağa imkan verəcəkdir.

Bu videokonfransa Asiya İnkişaf Bankının Direktorlar Şurasında Azərbaycan üzrə icraçı direktor Antoni Makdonald, bankın vitse-prezidenti Şiksin Çen, Mərkəzi və Qərbi Asiya üzrə baş direktor Verner Lipax və bankın Azərbaycan ofisinin direktoru Nariman Mannapbekov da qoşulub.

Prezident İlham Əliyev: Təşəkkür edirəm, cənab prezident. İlk növbədə, sizi Asiya İnkişaf Bankının prezidenti seçilməyiniz münasibətilə təbrik etmək və fəaliyyətinizdə uğurlar arzulamaq istərdim. Əminəm ki, sizin rəhbərliyiniz dövründə Azərbaycan və Asiya İnkişaf Bankı son 20 ildə olduğu kimi, sıx şəkildə işləməyə davam edəcək. Qeyd etdiyiniz kimi, biz çox güclü tərəfdaşlıq qurmuşuq. Biz hamımız Asiya İnkişaf Bankının illik toplantısının 2015-ci ildə Bakıda keçirildiyini xatırlayırıq. Bu, həqiqətən də əməkdaşlığın çox yaxşı əlaməti idi və görüş çox uğurla keçdi.

Bildiyiniz kimi, biz bir sıra mühüm layihələr üzərində işləyirik. Asiya İnkişaf Bankının Azərbaycana ayırdığı kredit və zəmanətlərin ümumi məbləği 3 milyard ABŞ dollarını ötür. Bu vəsait bizə infrastruktura investisiya yatırmağa kömək edib. Biz elektrik enerjisinin istehsalı, dəmir yolu tikintisi, yol tikintisi, su və kanalizasiya ilə bağlı çoxsaylı infrastruktur layihələrini dəstəklədiyinə görə Asiya İnkişaf Bankına çox minnətdarıq. Əlbəttə ki, biz Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsinə sadiqliyinizə və dəstəyinizə, maliyyə dəstəyinizə görə sizə çox minnətdarıq. Mən sizə deyə bilərəm ki, Asiya İnkişaf Bankı bu layihəyə kredit verən ilk böyük beynəlxalq banklar arasında birinci olub. Sizin çox mühüm və vaxtında göstərdiyiniz dəstək bizə, həmçinin çox geniş kreditorlar qrupu yaratmağa kömək etdi. Bildiyiniz kimi, Cənub Qaz Dəhlizi tamamlanmağa çox yaxındır, 3 layihə artıq tamamlanıb. Dördüncüsü - Trans-Adriatik boru kəməri 95 faizdən çox tamamlanıb. Bu, həqiqətən də əməkdaşlığın çox yaxşı əlamətidir.

Hazırda biz yeni layihələr üzərində işləyirik. Mənə verilən məlumata görə, bizim portfelimizdə suvarma və təhsillə bağlı icra olunacaq bəzi layihələr var. Bütün bunlar çox böyük əhəmiyyət kəsb edir. Əminəm ki, qarşıdakı illərdə əməkdaşlığımız davam edəcək. Sizin burada - Bakıdakı və mənzil-qərargahınızdakı komandanız bizim prioritetlərimizi, inkişafımız üçün prioritetlərin nədən ibarət olduğunu bilirlər. Bu, əsasən, özəl sektor, infrastrukturun inkişafı, kiçik və orta müəssisələrə dəstək məsələləri ilə əlaqədardır.

Əlbəttə ki, pandemiya dövründə göstərdiyimiz bütün səylər insanları necə xilas etmək, onların sağlamlığını, həyatlarını necə qorumaq məqsədi daşıyıb. Azərbaycanın vaxtında gördüyü tədbirlər sayəsində biz minimum itki vermişik. Ümumdünya Səhiyyə Təşkilatının bəyanatlarına əsasən Azərbaycan pandemiya ilə mübarizədə nümunə hesab olunur. Biz, həmçinin böyük həcmdə vəsait ayırmışıq. İqtisadiyyatın pandemiyadan zərər çəkən sektorlarını dəstəkləmək, eləcə də işsizliyi, işini itirmiş insanları, aztəminatlı insanları və hətta qeyri-formal məşğulluğa cəlb olunmuş insanları dəstəkləmək üçün 2 milyard avrodan çox vəsait ayırmışıq.

Biz qeyri-formal məşğulluqla mübarizə aparırıq və ciddi tədbirlər görmüşük. Təkcə bu il işçilərlə şirkətlər arasında 100 mindən çox müqavilə imzalanıb. Lakin bununla belə, biz bu insanların bu problemdən əziyyət çəkdiyini başa düşürük. Bu səbəbdən də 4 ay ərzində iqtisadi artımımız çox az olmuşdur, bununla belə, 0,2 faiz təşkil etmişdir. Mən bilirəm ki, hazırda bir çox ölkələr, əfsuslar olsun, resessiyadadır. Beş ayın nəticələri hələ ki, bizə məlum deyil, ola bilsin, 1 həftə ərzində məlum olacaq. Lakin düşünürəm ki, biz bu vəziyyətin öhdəsindən gələ biləcəyik. Sizin doğru olaraq qeyd etdiyiniz kimi, neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi bizim üçün əlbəttə ki, çağırışdır. Lakin biz addımlarımızı, büdcəmizi yeni reallıqlara uyğunlaşdırmağa nail olmuşuq və reallıqlar necə olsa, biz bunu nəzərə almalıyıq. Biz sosial layihələrin heç birini ixtisara salmamışıq, onların hamısı büdcəmizdə qalır. Lakin o layihələr ki, bir neçə il gözləyə bilər, onlar, əlbəttə, ola bilsin bir qədər təxirə salınsın. Düşünürəm ki, ümumilikdə, Azərbaycan yaxşı nəticələr nümayiş etdirən ölkələr arasında olacaq.

Mən bilirəm ki, çox ölkələr, eşitdiyimə görə, 150-dən çox ölkə maliyyə dəstəyi üçün artıq beynəlxalq maliyyə institutlarına müraciət edib. Azərbaycan onların arasında deyil. Bilirsiniz ki, biz üzərimizə düşən işi layiqincə yerinə yetiririk və bizim xərclərimiz daim mənfəətimizdən aşağı olub. Mən deyərdim ki, ehtiyatları qorumaq və artırmaq bizim başlıca iqtisadi hədəfimiz olub.

Masatsuqu Asakava: Təşəkkür edirəm, cənab Prezident. Pandemiya ilə mübarizə və onun Azərbaycana təsiri ilə bağlı həyata keçirdiyiniz nəhəng islahat paketi barədə mənə məlumat verilib. Sizin rəhbərliyinizlə beynəlxalq platformalarda - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və Qoşulmama Hərəkatı çərçivəsində pandemiyaya qarşı səylərin əlaqələndirilməsi məndə dərin təəssürat yaratdı. Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına COVID-19-la mübarizə fonduna toplam 10 milyon ABŞ dolları, o cümlədən bu sahədə ehtiyacı olan Qoşulmama Hərəkatına üzv dövlətlərə 5 milyon ABŞ dolları həcmində ianə ayırması da təqdirəlayiq haldır. Həmçinin bilirəm ki, pandemiyadan əziyyət çəkən 13 ölkəyə, o cümlədən Çin Xalq Respublikası, Pakistan, Qırğızıstan, Tacikistan və Özbəkistana da Azərbaycan tərəfindən yardım göstərilib.

Bununla yanaşı, fürsətdən istifadə edərək, hökumətinizin 13-cü Asiya İnkişaf Fonduna töhfə vermək qərarına görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Dünyanın yoxsul və həssas vəziyyətdə olan ölkələri bu imkandan yararlanacaqdır. Təşəkkür edirəm.

COVID-19-la bağlı vəziyyətə gəldikdə, mənə hökumətiniz tərəfindən pandemiya əleyhinə atılan qabaqlayıcı tədbirlər, ölüm hallarının aşağı səviyyədə olması və aparılan test sayının artması barədə məlumat verilib. Bu, onu nümayiş etdirir ki, ölkədə səhiyyə sahəsində risklər çox yaxşı idarə edilir.

Cari ilin ilk 4 ayı ərzində ölkənizin makroiqtisadi göstəriciləri kifayət qədər sabit olmuşdur. Dövlət büdcəsinə daxilolmalarda artımın olması təqdirəlayiqdir, lakin ilin ikinci yarısında güclü azalma riskləri ehtimalı mövcuddur. Bu baxımdan, tərəfinizdən ümumi daxili məhsulun 4,3 faizinə bərabər, geniş iqtisadi yardım paketinin qısa müddətdə qəbul edilməsini, pandemiyanın yayılmasının qarşısının alınması üçün səhiyyə sahəsində addımların atılmasını, sosial tədbirləri və biznesin dəstəklənməsini alqışlayırıq. Bildiyim qədər, Azərbaycanın Mərkəzi Bankı da maliyyə sektorunun dəstəklənməsi üçün bir sıra tədbirlər həyata keçirmişdir.

Asiya İnkişaf Bankının prezidenti Masatsuqu Asakava rəhbərlik etdiyi qurumun COVID-1-la mübarizə sahəsində dəstək paketi haqqında məlumat verdi. Bildirdi ki, bu paketə tibbi ləvazimat və şəxsi qoruyucu vasitələrin alınması üçün qrantların ayrılması, iqtisadiyyata və cəmiyyətə təsirin azaldılması üçün büdcə dəstəyi, özəl sektorda işlə təminatın və fəaliyyətin dayanıqlı olması üçün kredit və zəmanətlərin verilməsi məsələləri daxildir. O, 2016-cı ildə neftin qiymətinin kəskin aşağı düşdüyü bir şəraitdə iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı bankın Azərbaycanla əməkdaşlığı məsələsinə də toxundu. Bildirdi ki, bank tərəfindən hazırda ölkələrin bütün ehtiyaclarının qarşılanması və Asiya İnkişaf Bankı ilə uzunmüddətli əlçatanlığın təmin edilməsi məqsədilə müvafiq meyarlara cavabvermənin dəyərləndirilməsi aparılır və beləliklə, hər bir ölkə üçün kreditin maksimal məbləği müəyyən edilir.

Ardı Səh. 3

səs

2 iyun 2020-ci il

# "Biz sosial layihələrin heç birini ixtisara salmamışıq, onların hamısı büdcəmizdə qalır"

*Asiya İnkişaf Bankının təşəbbüsü ilə Prezident İlham Əliyevlə bu bankın rəhbərləri arasında videokonfrans keçirilib*

Əvvəli Səh. 2

Prezident İlham Əliyev: Çox sağ olun, cənab prezident. Əvvəla qeyd etmək istərdim ki, koronavirusla mübarizədə və dünya miqyasında göstərdiyiniz təşəbbüslərlə bağlı yaxşı məlumatlı olmağınız məni çox sevindirir. Belə təsadüf edib ki, Azərbaycan hazırda sizin də qeyd etdiyiniz kimi, iki təşkilata - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına və Qoşulmama Hərəkatına sədrlik edir. Ötən il bizim çox uğurlu Zirvə görüşümüz olmuşdur və Azərbaycan 120 ölkənin yekdil qərarı ilə bu təşkilata sədr seçilmişdir. Buna görə düşündük ki, bütün dünya üçün bu önəmli vaxtda liderlik göstərmək və çox mühüm əməkdaşlıq formatını yaratmaq bizim öhdəliyimizdir. Hər iki Zirvə görüşü uğurla keçdi. Sizə deyə bilərəm ki, biz nəinki təkcə koronavirusla mübarizə sahəsində fikir mübadiləsi apardıq, eyni zamanda, qarşılıqlı dəstək göstərdik. Zirvə görüşündən sonra üzv ölkələrin müvafiq nazirlərinin iştirakı ilə koronavirusla mübarizə sahəsində birgə səylərlə bağlı çox mühüm məsələlərə həsr olunan bir sıra konfranslar keçirilmişdir.

Həmçinin bizim Ümumdünya Səhiyyə Təşkilatına ianəmiz haqqında da sizin yaxşı məlumatınız var. Düşünürəm ki, biz ilk dəfə beş milyon dollar ayıran ölkələr arasında birinci ölkələrdən idik, sonra isə Qoşulmama Hərəkatının sədri qismində əlavə beş milyon dollar ayırdıq. Biz Azərbaycan tərəfindən verilmiş humanitar dəstəklə artıq 14 ölkəni əhatə etmişik. Bu, həm maliyyə, həm avadanlıq, həm də tibbi ləvazimatlar dəstəyi olmuşdur. Həmçinin Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə biz yardıma ən çox ehtiyacı olan 15 ölkəyə dəstək göstərəcəyik. Ümumdünya Səhiyyə Təşkilatı ilə razılaşmada bu 15 ölkə müəyyən olunub. Ona görə də bu müddət ərzində Azərbaycan demək olar ki, 30 ölkəyə dəstək verib. Düşünürəm ki, bu, bizim üzərimizə düşən məsuliyyətdir. Çünki bu çətin zamanda ölkələr və insanlar bir-birini dəstəkləməlidirlər.

Əməkdaşlığımızla bağlı yeni ideyalara gəlincə, biz bunda çox maraqlıyıq. Çünki mən xatırlayıram ki, 5-6 il bundan əvvəl bizim maliyyə dəstəyinə ehtiyacımız olanda Asiya İnkişaf Bankı çox tez reaksiya göstərdi. Həqiqətən də bu, mənə çox xoş təsir bağışladı və mən bir daha çox vaxtında göstərilmiş dostcasına yanaşmaya görə minnətdarlığımı ifadə etmək istəyirəm. Biz bunun əməkdaşlığın çox yaxşı əlaməti olduğunu nəzərə aldıq. Əvvəl qeyd etdiyim kimi, Cənub Qaz Dəhlizi layihəsini ilk dəstəkləyən siz oldunuz. Yeri gəlmişkən, biz Cənub Qaz Dəhlizi Məşvərət Şurasının illik toplantılarını təşkil edirik. Mən xatırlayıram, bəzi başqa banklar layihəyə maliyyə öhdəliyini nəzərdən keçirdiyi vaxtda qeyd etdim ki, "Şahdəniz"dən hasil olunan qaz Avropaya nəql ediləcək. Lakin Avropa banklarında hələ proses getdiyi halda, Asiya İnkişaf Bankı artıq maliyyələşməni təmin etdi. Düşünürəm ki, sizin çox dostcasına verdiyiniz dəstək böyük bir qrupun birləşməsində mühüm rol oynadı.

Azərbaycanın Maliyyə naziri Samir Şərifov: Çox sağ olun, cənab Prezident, prezident Asakava. Cənab Prezident, söhbətinizin davamı olaraq bildirmək istərdim ki, hazırda biz Asiya İnkişaf Bankı ilə ölkə üzrə biznes əməliyyatları strategiyası əsasında işləyirik. Bu strategiya çərçivəsində Asiya İnkişaf Bankı qarşıdakı 3-4 il üçün Azərbaycanla bağlı kredit prioritetlərini müəyyənləşdirməyə çalışır. Bildirmək istərdim ki, hazırda onlar, həmçinin Azərbaycanla bağlı çox mühüm texniki yardım proqramlarında olduqca fəal iştirak edirlər. Onların bir neçəsi həqiqətən də çox mühümdür, xüsusilə layihəyə hazırlıq mexanizmi. Bu da, həmçinin kredit vasitəsilə tamamlana bilən texniki yardım proqramıdır. Cənab Prezident, başqa bir mühüm layihə startapların yaradılması üçün texniki yardım layihəsidir. Bunlar olduqca mühüm layihələrdir.

Maliyyə naziri Samir Şərifov Azərbaycanda peşə təlimi sisteminin gücləndirilməsi məsələsi ilə bağlı bankla əməkdaşlığa toxunaraq bildirdi ki, hazırda Asiya İnkişaf Bankının təqdim etdiyi peşə təhsili təlimi layihəsi ilə əlaqədar bu qurumla Təhsil Nazirliyi arasında müzakirələr başlayıb. Nazir qeyd etdi ki, digər layihə əsasən özəl və maliyyə sektoru ilə bağlıdır. Bildirdi ki, ənənəvi layihələr arasında suvarma layihələri var. Asiya İnkişaf Bankı dövlətimizin başçısının imzaladığı fərmanla Azərbaycanda sudan istifadə məsələləri ilə məşğul olmaq üçün hökumət yanında Operativ Qərargahın yaradılmasından məlumatlıdır və bu məsələyə töhfə vermək niyyətindədir. Samir Şərifov dedi ki, Asiya İnkişaf Bankı bu sahədə Naxçıvan Muxtar Respublikasında layihəni nəzərdən keçirməyi təklif edir.

Masatsuqu Asakava: Azərbaycanın dayanıqlı inkişafına verdiyimiz töhfənin hansı şəkildə olması aydın oldu. İcazə verin, bir neçə məqamı qeyd edim. Asiya İnkişaf Bankı Sizin hökumətinizin iqtisadiyyatın şaxələndirilməsinin sürətləndirilməsinə və inklüziv artımın təşviqinə, eləcə də koronavirus böhranından tez bir zamanda iqtisadiyyatın bərpa olunmasına yönəlmiş strateji inkişaf gündəliyinə verdiyi dəstəyi davam etdirəcək. Bu halda, şaxələndirilmiş iqtisadiyyatın tələbatlarına daha yaxşı cavab vermək, dövlət və özəl sektorlar arasında tərəfdaşlığı təşviq etmək üçün infrastrukturun da inkişafı nəzərdə tutulur. Bütün bunlar Sizin ölkənizlə apardığımız tərəfdaşlığın strateji prioritetləridir. Dövlət və özəl sektorlar arasında tərəfdaşlıq hökumətlə həyata keçirdiyimiz layihələrin əsas mövzusu kimi qalmaqdadır. İdarəçilik sahəsində olduqca fəal mövqedən çıxış etməliyik. Bu sahəyə xarici borcun ümumi daxili məhsula nisbəti məsələsi aiddir və bu nisbət gözlənildiyindən daha sürətli templə azalmaqdadır. Mən mövqeyinizi tam anlayıram ki, Siz innovativ, tam yeni texnoloji layihələrə sərmayələrin yatırılmasını dəstəkləyirsiniz. Bundan irəli gələrək, rəhbərlik etdiyim heyət əlindən gələni edir ki, bütün həmin layihələrin hiss olunan nəticələri yüksək texnologiyalar sahəsində olsun. İstərdik ki, onların hökumətin strateji hesab etdiyi sahələrə böyük təsiri özünü göstərsin. Məsələn, su ehtiyatları, idarəçilik, maliyyə, enerji səmərəliliyi və digər sahələr.

Bir sözlə, yuxarıda qeyd olunanlardan irəli gələrək və hökumət orqanları ilə məsləhətləşərək, mənim əməkdaşlarım bir sıra sənədləri hazırlayıblar. Birincisi, cənab Prezident, Siz də qeyd etdiyiniz kimi, suvarma və drenaj sistemlərinin inkişaf etdirilməsi layihəsi xüsusi əhəmiyyət kəsb edir. Bundan əlavə, ikincisi, peşə təhsili və ticarətin liberallaşdırılması da nəzərdə tutduğumuz proqramın bir hissəsidir. Nəhayət, üçüncüsü katalizator rolunu oynayacaq kiçik və orta sahibkarlığın maliyyələşdirilməsidir. Biz, həmçinin elektrik enerjisinin paylanması sahəsində götürdüyümüz öhdəliklərə sadiq qalırıq. Bu məqsədlə, elektrik şəbəkəsinin təkmilləşdirilməsinə sərmayə proqramı nəzərdə tutulur. Əgər Sizin hökumət müsbət qərar verərsə, bu proqramlar icra oluna bilər.

Cənab Prezident, Siz, həmçinin Cənub Qaz Dəhlizi layihəsini qeyd etdiniz. Mən bu layihənin əsas mərhələlərinin başa çatması münasibətilə Sizi təbrik edirəm. Asiya İnkişaf Bankı da bu layihənin cari il ərzində tam başa çatdırılması məqsədilə maliyyə dəstəyini davam etdirəcək.

Sonra bankın Mərkəzi və Qərbi Asiya departamentinin baş direktoru Verner Lipax çıxış edib: Təşəkkür edirəm, cənab Prezident. Burada olmağıma çox şadam. İcazənizlə xatırladım ki, biz Sizinlə 2018-ci ildə görüşmüşük. Həmin vaxt Siz bizi kənd təsərrüfatı torpaqlarında suvarmanın yüksək texnologiyalarını tətbiq etməyə dəvət etdiniz. Siz Asiya İnkişaf Bankının Naxçıvan Muxtar Respublikasında aparılan işlərə verdiyi töhfəsini qeyd etdiniz. Bunun əsasında, biz Naxçıvanda suvarma sistemlərinin inkişaf layihəsini hazırlamağa başladıq. Bu ilin yanvar ayında suvarma sistemlərinin texniki əsaslandırılması məqsədilə 1,2 milyon dollar həcmində qrant ayrılmışdır. May ayında biz bu sənədi Sizin Sərəncamınızla 2020-ci ilin aprel ayında yaradılmış Dövlət Su Ehtiyatları Komissiyasına rəy almaq üçün təqdim etmişik. Əslində, bu layihə su kanallarında geomembran texnologiyasının tətbiqini, kanal istiqamətinin seçilməsində Coğrafi İnformasiya Sistemindən istifadəni, nəzarət qurğularını və məlumat bazasının qurulmasını, o cümlədən SKADA sistemindən istifadəni nəzərdə tutur. Həmçinin kənardan idarə edilməsi, peyklə baxış üsulu ilə suyun məhsuldarlığı və sistemin işləməsi də sınaqdan keçiriləcək. Bütün bu işlər torpaqların şoranlaşmasının azaldılmasına və kənd təsərrüfatında məhsuldarlığın artırılmasına yönəlib.

Verner Lipax peşə təhsili sistemində ölkəmizlə əməkdaşlığın genişləndirilməsi sahəsində görülən tədbirlərdən danışdı. Qeyd etdi ki, bu ilin fevralında peşə təhsilinin inkişafı ilə bağlı təklif edilmiş proqram Dördüncü Sənaye İnqilabına uyğunlaşmaq baxımından seçilmiş sənaye sahələrinə və peşə bacarıqlarının formalaşdırılmasına yönəlir. Bu, həm də Davosda əldə olunmuş razılıq əsasında Bakıda Dördüncü Sənaye İnqilabının regional mərkəzinin yaradılması ideyası ilə üst-üstə düşür. Daha sonra o, kiçik və orta müəssisələr üçün maliyyə işlərinin tənzimlənməsi layihəsi barədə danışdı və bildirdi ki, kiçik şirkətlərin həvəsləndirilməsi, onların maliyyəyə çıxışının təkmilləşdirilməsi üçün hökumət ilkin mərhələ üzrə maliyyələşdirmə portfelini hazırlaya bilər. Verner Lipax bu məqsədlə hökumətə pul vəsaitləri ayırmalarının və həmin kreditlər portfelinin yerli valyuta ilə, yəni, manatla formalaşdırılmasının mümkünlüyünü vurğuladı.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Burada qaldırılmış bütün məsələlər böyük əhəmiyyətə malikdir və mən onların bəziləri ilə bağlı şərhlərimi bildirəcəyəm. Peşə təlimi ilə bağlı məsələlər üzərində uğurla irəlilədiyimizdən məmnunam. Bu, bizim üçün prioritet məsələlərdən biridir. Biz artıq bəzi ölkələrlə təmaslar yaratmışıq və bəzi layihələri icra etmişik. Biz Azərbaycanda binalar inşa etməklə, avadanlıq almaqla bütün infrastruktura sərmayə yatırmışıq və onlar da öz texnologiyalarını gətiriblər. Buna görə də xüsusilə indi, fəal sənaye inkişafını yaşadığımız bir dönəmdə yaxşı mütəxəssislərin hazırlanması böyük əhəmiyyətə malikdir. Bu ilin bir göstəricisini sizə deyə bilərəm. İlk dörd ay ərzində ümumi daxili məsul artımının çox az - 0,2 faiz olmasına baxmayaraq, həmin dörd ay ərzində bizdə qeyri-neft sənayesində 16 faizdən çox artım müşahidə olunmuşdur. Bu, həqiqətən onu göstərir ki, bizim sənayeləşmə, şaxələnmə və sənaye inkişafına təkan verən infrastruktura sərmayə üzrə səylərimiz həqiqətən yaxşı nəticələr verir. Buna görə də qeyri-enerji sektorunun sürətli artımı əminəm ki, davam edəcəkdir və bunun üçün də bizə bu biznesi apara bilən yaxşı mütəxəssislər lazım olacaqdır. Odur ki, mən peşə təlimi ilə məşğul olmağımızı çox dəstəkləyirəm və həmçinin kiçik və orta müəssisələrə yerli valyuta ilə dəstəyin göstərilməsi vasitəsilə özəl sektora dəstəyiniz də çox faydalıdır. Bildiyiniz kimi, bizim borcgötürmə ilə bağlı strategiyamız çox mühafizəkardır və bu, bizə öz milli valyutamızda borc götürməyə imkan verəcəkdir.

Suvarma ilə bağlı məsələlərə gəldikdə, sizin mənim müraciətimə cavabınız üçün minnətdaram. Mənə verilən məlumata görə, Naxçıvandakı suvarma layihəsi indi artıq razılaşdırılmağa çox yaxındır. Mənə məlumat verildi ki, kreditin ümumi məbləği təqribən 100 milyon ABŞ dolları olacaqdır. Hesab edirəm ki, bu, Naxçıvanda kənd təsərrüfatının inkişafı üçün çox faydalı olacaqdır. Biz dövlət investisiya proqramı vasitəsilə Naxçıvanın irriqasiya sahəsində inkişafına hər il sərmayə yatırırıq. Lakin əlbəttə ki, əlavə vəsait, üstəgəl, sizin mütəxəssis təcrübəniz çox faydalı olacaqdır. Bundan əlavə, sizin bütün ölkə ərazisində suvarma ilə bağlı planlarımızı nəzərdən keçirməyinizi istərdim. Biz hazırda vəziyyəti qiymətləndiririk və çox böyük su itkiləri ilə üzləşdiyimizi görürük. Bəzi hallarda köhnəlmiş infrastruktura və səmərəli olmayan su idarəetmə sisteminə görə biz suyun 40-50 faizini itiririk. Buna görə də müxtəlif nazirlərin təmsil olunduğu və Baş Nazirin müavininin rəhbərlik etdiyi, digər nümayəndələrin iştirak edəcəyi xüsusi hökumət komissiyası yaradılmışdır. Onlar bizim bütöv su potensialımızı qiymətləndirəcək və prioritetləri, hansı işləri görməli və hansı investisiyaları yatırmalı olduğumuzu müəyyən edəcəklər. Buna görə sizdən bu layihəni nəzərdən keçirməyi xahiş etmək istərdim.

Ardı Səh. 4

# "Biz sosial layihələrin heç birini ixtisara salmamışıq, onların hamısı büdcəmizdə qalır"

## *Asiya İnkişaf Bankının təşəbbüsü ilə Prezident İlham Əliyevlə bu bankın rəhbərləri arasında videokonfrans keçirilib*

Əvvəli Səh. 3

Ümidvaram ki, bir neçə aydan sonra bu komissiyanın fəaliyyətinin ilk nəticələri bizdə olacaq. Biz suvarmanın inkişafı üzrə dövlət proqramının qəbul edilməsi və suvarmanın daha da səmərəli olması ilə nəticələnəcək addımları müəyyən etməyə başlaya bilərik. Buna görə də texniki dəstək və maliyyə dəstəyi baxımından biz bu məsələ üzərində sizinlə çalışmağa məmnun olarıq.

Bu gün toxunmaq istədiyim digər bir məsələ, - siz artıq onu qeyd etdiniz, - enerji səmərəliliyi məsələsidir. Biz indi iki şirkətdə Azərenerji və Azərişıqda bu işləri aparırıq. Bu il və ötən il yatırılmış müəyyən investisiyalara görə Azərenerji minimum 600 meqavat səviyyəsində mövcud elektrik enerjisi stansiyalarının məhsuldarlığını artıra bilmişdir və bu proses davam edir. Bizim ən böyük və Qafqazda ən böyük olan Mingəçevir elektrik stansiyamız tamamilə bərpa edilmişdir və ola bilsin ki, 1 və ya 2 ay müddətində bərpa işlərindən sonra açılacaqdır. Bundan əlavə, biz hazırda bərpa olunan enerji mənbələri üzərində fəal şəkildə işləyirik və bu sahədə fəaliyyət göstərən iki böyük şirkətlə bu ilin yanvar ayında artıq iki ilkin müqavilə imzalanmışdır. Ümumi enerji hasilatının həcmi 400 meqavat olacaqdır. İnvestisiya tamamilə xaricdən gələcəkdir və Günəş və küləklə işləyən iki elektrik stansiyası olacaqdır. Buna görə də kifayət qədər Günəş və külək mənbəyinə malik olduğumuzu nəzərə alaraq enerjinin bu sektorunu inkişaf etdirmək üçün bizim planlarımız var. Ona görə də sizdən bu variantı da nəzərdən keçirməyi xahiş edərdim.

Həmçinin sizin də düzgün qeyd etdiyiniz kimi, Davos Dünya İqtisadi Forumu ilə bizim münasibətlərimiz indi yeni mərhələyə qədəm qoyub. Yanvar ayında cənab Börge Brende və mən Davosda Azərbaycanda region üzrə Dördüncü Sənaye İnqilabının regional habının yaradılması üzrə sənədi imzaladıq. Hesab edirəm ki, bu, bizim sənaye inkişafında gördüyümüz səylərin yaxşı qiymətləndirilməsinin bir nümunəsidir. Biz nəinki təkcə Azərbaycan üçün, eyni zamanda, region üçün çox güclü platformanın necə inkişaf etdirilməsi ilə bağlı sizinlə işləməyə hazırıq ki, çox imkanlar yaratmaq məqsədilə mövcud infrastrukturumuzdan, bağlılıqdan və Azərbaycanın coğrafi mövqeyindən istifadə etmək mümkün olsun.

Toxunmaq istədiyim digər bir məsələ budur ki, biz dəmir yolu layihəsi ilə bağlı artıq birlikdə işləmişik. Lakin biz indi Şimal-Cənub istiqamətində dəmir yolumuzun bərpa edilməsi prosesindəyik. Azərbaycan artıq bu dəhlizə böyük həcmdə sərmayə yatırmışdır. Onun çox böyük potensialı var. Biz artıq şimaldan - Rusiyadan daxil olan, Azərbaycan ərazisindən qərb və cənub istiqamətində yükləri qəbul edirik. Lakin İranla sərhəddən başlayaraq Rusiya ilə sərhədə qədər dəmir yolumuzun keyfiyyəti yaxşı deyil. Buna görə də biz qatarların sürətini artırmaq üçün indi artıq bəzi vəsaiti sərmayə olaraq yatırmışıq və biz bunu etməyi planlaşdırırıq. Çünki belə ola bilər ki, bütün yüklərin öhdəsindən gəlmək üçün bizim mövcud infrastrukturumuz kifayət etməyə bilər. Bu gün artıq bizim Rusiya ilə sərhədimizdə tıxaclar var. Çünki Azərbaycandan, həm də İrandan artan ixrac malların artıq yük maşınları ilə gətirilməsini mümkünsüz edir. Buna görə də bizə Şimal-Cənub dəhlizinin bir hissəsi olacaq müasir dəmir yolu sistemi lazımdır. Mən sizdən bu layihəni də nəzərdən keçirməyi xahiş etmək istərdim. Gələcək kommunikasiya prosesində ola bilsin sizə hansı işlərin görüldüyü və bizim planlarımız ilə bağlı daha ətraflı məlumat veriləcəkdir.

Masatsuqu Asakava: Çox sağ olun cənab Prezident. Çox şadam ki, biz Asiya İnkişaf Bankının suvarma, peşə təhsili, kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi layihələri vasitəsilə Azərbaycanın dayanıqlı inkişafına hansı şəkildə töhfə verəcəyi ilə bağlı eyni fikirdəyik. Cənab Prezident, Siz, həmçinin bərpa olunan enerjini qeyd etdiniz. Bu sahəyə də biz böyük töhfə vermək istərdik. Eyni zamanda, Siz dəmir yolu sisteminin bərpasını qeyd etdiniz. Asiya İnkişaf Bankının ciddi şəkildə hansı töhfə verə biləcəyi üzərində düşünəcəyik və qısa zamanda sizə cavab verəcəyik.

Verner Lipax: Bir sözlə, əvvəlki təcrübəmizə əsaslanaraq, yeni işləri icra edə bilərik. Fikrimcə, həmkarlarımız Sizinlə bu gündəliyin icrası üçün işləməkdən çox məmnun olardı. Sağ olun.

Prezident İlham Əliyev: Çox yaxşı.

Masatsuqu Asakava: Biz Azərbaycandakı vəziyyətlə bağlı çox faydalı müzakirə üçün olduqca minnətdarıq. Biz qadağalar aradan götürülən kimi mümkün qədər qısa müddətdə və Sizin vaxtınız olarsa, Azərbaycana səfər etməyi arzulayırıq.

Prezident İlham Əliyev: Çox sağ olun cənab prezident. Bu mühüm məsələlərlə bağlı sizinlə müzakirə aparmaq imkanına görə təşəkkür edirəm. Cənab prezident və iştirakçılar, əminəm ki, pandemiya bitən kimi bizə sizi Azərbaycanda qəbul etmək şərəfi nəsib olacaq. Mən sizi dəvət edirəm, bu məsələləri həll etməyə də sizi dəvət edirəm. Komandalarımız bu gün müzakirə etdiyimiz məsələlər üzərində çalışmağa davam edəcəklər. Çox sağ olun.

Masatsuqu Asakava: Sağ olun.

# Birinci vitse-prezident Mehriban Əliyeva uşaqları təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi günü ilə bağlı paylaşım edərək, uşaqları təbrik edib. SİA xəbər verir ki, təbrikdə deyilir: "Balaca soydaşlarımızı 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Bütün balalara möhkəm cansağlığı, sevgi, sevinc, xoşbəxt gələcək arzulayıram!".

# Adil Əliyev: "Sosial şəbəkələrdə təhqirlərə qarşı susmaq olmaz"



Hazırda bütün dünyada 4,54 milyard sosial şəbəkə istifadəçisi var". SİA-nın məlumatına görə, bunu Milli Məclisin dünən keçirilən növbədənkənar sessiyasının ilk iclasında vitse-spiker Adil Əliyev deyib.

O bildirib ki, sosial şəbəkələrin bir çoxu ABŞ-da yaradılıb və ofisləri ordadır: "Lakin ABŞ-da sosial şəbəkələrlə bağlı qanun layihəsi hazırlanıb. Layihənin əsas məqsədi terrorçuluqla və digər hallarla bağlı çağırışların qarşısını almaqdır. Sosial şəbəkə istifadəçisi təbii ki, fikrini ifadə etməlidir. Lakin Konstitusiyanın 47-ci maddəsi diqtə edir ki, tənqidə dözümlü olmalıyıq, təhqirə isə yox. Sosial platformalar hansısa məqsədlərə nail olmaq üçün istifadə edilən yerdir. ABŞ prezidentinin dediyi kimi, sosial şəbəkələr bir qrup insannın maraqlarını təmin edən platformaya çevrilib. Son zamanlar ölkəmizdə də müharibə, terrorizm və s. ilə bağlı çağırışlar edilir. Ancaq bu qanunazidd addımların qarşısı alınır. Lakin bizim müvafiq komitəmizdə bu məsələ ilə bağlı Cinayət Məcəlləsində dəyişiklik edilməsinə ehtiyac var. Cinayət və İnzibati Xətalar Məcəlləsində bu dəyişikliklərin edilməsi üçün peşəkar hüquqşünaslar da bu məsələyə cəlb edilsin". Millət vəkili qeyd edib ki, təhqirə ən çox məruz qalan deputatlardan biri də özüdür: "Mən cavab verdiyim üçün onlar bunu daha da davam etdirirlər. Mənimlə eyni gündə digərlərini də təhqir ediblər, onlar susublar deyə, daha onların üstünə getməyiblər. Bu məsələdə susmaq olmaz. Sabah digərlərimiz də təhqirə məruz qala bilərik. Ona görə də bununla biz birgə mübarizə aparmalıyıq".

# "Bu cür fikirlərlə əhalinin evini yıxırıq"



"Burada söhbət cərimənin miqdarından deyil, maska taxmayanların cərimələnməsindən gedir İnsanlar qanuna tabe olmalı, ona riayət etməlidir". SİA-nın xəbərinə görə, bunu Milli Məclisin deputatı Siyavuş Novruzov parlamentin növbədənkənar sessiyasının dünən keçirilən plenar iclasında cərimələrin miqdarının azaldılması ilə bağlı irəli sürülən təklifə cavab olaraq bildirib. O bildirib ki, kimsə əhalidən dəstək almaq, xalq qazanmaq istəyirsə, bu cür fikirlər səsləndirir: "Bu, gəlir vergisi, əmlak vergisi deyil ki, burada məbləğin çox, ya da az olmasını müzakirə edək. Ancaq bu cür fikirlərlə əhalinin evini yıxırıq. Məsələ çox sadədir. Maska taxan heç kəs cərimə olunmayacaq. Maska tax, cərimə olunma. Biz özümüz üçün bunu hələ müəyyənləşdirə bilməmişik, insanlara nəsihət verməyə çalışırıq".

Xatırladaq ki, Milli Məclisin Əmək və soail siyasət komitəsinin sədri Musa Quliyev parlamentin bu gün keçirilən iclasında İnzibati Xətalar Məcəlləsinə dəyis?ikliklər layihəsinin müzakirəsi zamanı cərimə məbləğinin 20-25 manata endirilməsini təklif etmişdi.

***Nailə Məhərrəmova***

# Silahlı Qüvvələrin Yardım Fonduna daxil olan vəsait açıqlandı

İyunun 1-dək Silahlı Qüvvələrin Yardım Fonduna daxil olan vəsait açıqlanıb. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrin Yardım Fonduna cari il iyunun 1-dək 110.847.750,32 AZN, 213.577,88 ABŞ dolları, 17.566,0 avro və 5000,0 rubl vəsait daxil olub.

# "Ermənistanda hərbi və siyasi rəhbərlik nüfuzunu itirib"

"Bir neçə gündən sonra Ermənistanda 4 günlük aprel döyüşlərinin nəticələrini araşdırmaq üçün 2016-cı ildə yaradılmış İstintaq Komissiyasının apardığı təhqiqat başa çatdırılacaq və nəticələrdən bir qismi ictimaiyyətə açıqlanacaq. Xatırladaq ki, 90-ci illərdə 1-ci Qarabağ müharibəsindən sonra birbirinin ardınca itirilmiş rayonlarımıza görə məhz Azərbaycanda belə istintaq və məhkəmə prosesləri aparılırdı və bu bizim məğlubiyyətlərimiz üzərində qurduğumuz məhkəmə idi". SİA-nın məlumatına görə, bunu dünən Milli Məclisin plenar iclasında çıxış edən parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib.

Z.Oruc deyib ki, Ermənistanda aprel döyüşlərindən sonra əsas hərbi və siyasi rəhbərlik yüksək kreslolarını və bir vaxtlar işğal hesabına qazandıqları nüfuzu itiriblər. Serj Sarkisyan, Seyran Ohanyan, bir neçə ordu generalı nəinki vəzifələrindən gedib, eləcə də istintaqa çağırılıblar. MDB Kollektiv Təhlükəsizliyinə 2017-də baş katib təyin olunub bir il sonra vəzifəsindən çıxarılan Yuriy Xaçaturov da izahata çağırılanlar sırasındadır: "İstintaq Komissiyasının işi ətrafında böyük ictimai maraq var və erməni xalqı Aprel müharibəsinə görə cəza tələb edir. Bu, Azərbaycan dövlətinin qələbəsidir. Ermənistanın hərbi və siyasi baxımdan parçalanması, keçmiş səhra komandirlərinin məhkəməyə çəkilməsi İlham Əliyevin 4 günlük müharibəsinin nəticəsidir. Bizim tarixçi və siyasətçilərimizin 100 il bundan əvvəl İrəvanın Ermənistana verilməsinin zərurət olduğunu əsaslandırmagla bütün güclərini səfərbər etdikləri bir vaxtda Ermənistanın inqilabi hakimiyyəti aprel müharibəsinin yenidən təkrarlanmaması üçün məhkəmə qurur və günahkarları tapmağa çalışır. Təzadlı mənzərədir, lakin nəticə bizim xeyrimizədir. Əksər erməni mediasında Azərbaycanın Naxçıvanın bölgəsində Ali Baş Komandan İlham Əliyevin yerləşdirdiyi hədəfi vurma məsafəsi 120 km olan müasir reaktiv qurğular, "Kaplan", "Kasırğa" və sair raket qurğularının təhlükəsi haqda silsilə yazılar gedir. Xatırladaq ki, Naxçıvandan İrəvana məsafə cəmi 42 kmdir. Bu gün öz siyasi və ordu generallarını mühakiməyə qalxan Ermənistan sual edir ki, İlham Əliyevin Naxçıvana müasir silahları yerləşdirilməsi ilə Azərbaycan prezidentinin son İrəvan çıxışı arasında hansı bağlılıq var? Ona görə gələcək müharibə üçün, yeni aprel, may, iyun döyüşləri üçün Azərbaycanın hərbi və siyasi dairələri, həmçinin mətbuat vasitələri Ermənistanda gedən Aprel müharibəsi istintaqının hər bir sətrini, hər bir hərəkətini öz həyati mənafeləri üçün izləməlidir".

***Nailə Məhərrəmova***

# Prezidentə təbrik məktubları: ali nüfuzun və liderlik faktorunun bariz sübutu!

*Bu amil eyni zamanda Onun şəxsinin, istərsə də ölkəmizin beynəlxalq nüfuzunun ali dərəcədə qiymətləndirilməsinin göstəricisidir*

***Prezident İlham Əliyevin rəhbərliyi ilə daxili və xarici siyasətdə mühüm uğurlar qazanan, regionda və dünyada nüfuzu artan Azərbaycanın inkişaf modelinə beynəlxalq maraq artmaqdadır. Azərbaycanın inkişafı ölkə vətəndaşlarının rifah halının yüksəlməsi ilə bərabər, həm də regional və qlobal əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, dünyanın nüfuzlu ekspertləri, siyasi xadimləri, ayrı-ayrı nəşrlər Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasəti, eləcə də dinamik islahatlar siyasətini yüksək qiymətləndirir, bu addımların möhtəşəm olduğunu vurğulayırlar. 28 May Respublika Günü ilə bağlı istər xarici ölkə rəhbərləri, istərsə də nüfuzlu təşkilat və qurumlar tərəfindən dövlətimizin başçısına ünvanlanan təbrik məktublarında da bu faktorlar vuğulanır və qeyd edilir ki, Azərbaycanda aparılan mütərəqqi siyasət amili digər ölkələr tərəfindən dəstəklənir və alşıqlanır.***

Digər tərəfdən, Azərbaycanın dinamik inkişafında, beynəlxalq münasibətlərdə fəal iştirakına, BMT-nin Təhlükəsizlik Şurasının üzvü kimi qlobal arenada sülh və təhlükəsizliyin təmin olunmasında, habelə digər məsələlərdə öncül yerlərdən birini tutmasının vurğulanması da sübut edir ki, Prezident İlham Əliyev tərəfindən reallaşdırılan mütərəqqi siyasət həm də nümunə etalonu olaraq qiymətləndirilməkdədir.

Bu baxımdan, nüfuzlu siyasi dairələrin Azərbaycana bu qədər diqqət ayırması, ölkəmizin uğurlarını yüksək qiymətləndirməsi və nəhayət, Prezident İlham Əliyevin siyasətinin dəstəklənməsi istər Onun şəxsinin, istərsə də ölkəmizin beynəlxalq nüfuzunun ali dərəcədə qiymətləndirilməsinin göstəricisidir. Daha dəqiq desək, bu reallıq həm də Prezident İlham Əliyevin dünyanın nüfuzlu siyasi liderlərindən biri olduğunu bir daha təsdiq edir.



## Dinamik iqtisadi inkişaf Azərbaycanın milli gücünü artıran faktor kimi

Beləliklə, ilk növbədə qeyd etmək lazımdır ki, dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən inkişaf siyasətinin ən effektiv nəticələrindən biri Azərbaycanın mütəmadi səciyyə daşıyan dinamik iqtisadi inkişafıdır. Belə ki, Azərbaycanın dinamik, müstəqil iqtisadi inkişaf strategiyası rasional səciyyə daşıyır. Ölkəmiz heç bir qurumdan, milli dövlətdən asılı olmayan iqtisadi siyasət yürüdür ki, bu da milli inkişafın fundamental komponenti kimi çıxış edir.

Ölkəmizdə aparılan uğurlu, məqsədyönlü siyasət nəticəsində ildən-ilə daha yüksək inkişaf göstəriciləri nümayiş etdirən iqtisadiyyatın formalaşdırılması ölkədə işgüzar fəallığın daha da yüksəldilməsinə, yoxsulluğun azaldılmasına əlverişli şərait yaradıb, əhalinin etibarlı sosial müdafiəsini təmin edib. Ötən illərdə dünyada baş verən qlobal böhran fonunda Azərbaycan iqtisadiyyatının davamlı inkişafı, bütün sosial proqramların tam həcmdə və vaxtında yerinə yetirilməsi də deyilənləri əks etdirir.

O cümlədən, qlobal pandemiya dövründə belə, sosial layihələrin icrası, müxtəif obyektlərin açılışı, eləcə də, vətəndaşların rifah halının daha da yaxşılaşdırılması istiqamətində atılan addımlar da diqqətdən yanınmır. Əbəs deyil ki, Azərbaycan dövləti COVİD-19 pandemiyasından əziyyət çəkən bir sıra ölkələrə humanitar yardımlar göstərir və bu amil eyni zamanda ölkəmizin beynəlxalq aləmdəki gücünü, qüdrətini təsdiq edir.

Göründüyü kimi, ölkəmizdə həyata keçirilən mütərəqqi social-iqtisadi tədbirlər respublikamızın daha da güclənməsini təmin edib. Bu gün hər bir sektorda iqtisadi inkişaf müşahidə olunur ki, bunun da əsasında Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət faktoru dayanır.

Səmərəli sosial siyasət vətəndaşların rifah halının yaxşılaşdırılmasına xidmət edir

Azərbaycanda sürətli inkişaf təbii olaraq, dövlət quruculuğunun bütün sahələrinə, o cümlədən, sosial sferaya ciddi sirayət edib və bir çox sosial proqram və layihələrdə real əksini tapıb. Əlbəttə, ölkəmizin iqtisadi qüdrətinin artması vətəndaşların sosial rifahının yüksəldilməsinə yönəlmiş layihələrin həyata keçirilməsinə zəmin yaradıb. Bir sözlə, sosial sahədə ardıcıl şəkildə həyata keçirilən layihələr onu göstərir ki, Azərbaycan hökuməti əhalinin maddi rifah halının yaxşılaşdırılması və onların bütün sosial qayğılarla əhatə olunmaları üçün güclü maliyyə imkanlarına və islahatları dərinləşdirmək iradəsinə malikdir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, sosial siyasət Azərbaycanın dövlət siyasətinin ayrılmaz hissəsidir: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır".

## İctimai-siyasi sabitlik ölkəmizin inkişafına təkan verən strateji faktordur

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən rasional daxili və xarici siyasət kursunun qanunauyğun nəticəsidir ki, bu gün Azərbaycan ictimai-siyasi sabitliyin yüksək səviyyədə təmin edildiyi ölkələr sırasındadır. Ölkəmizdə bütün sahə və sektorların dinamik inkişafına təkan verən mühüm amillərdən biri olmaq etibarilə ictimai-siyasi sabitlik həm də milli təhlükəsizliyin strateji qarantı qismində çıxış edir. Belə ki, birmənalı şəkildə qeyd etmək olar ki, Azərbaycanda hökm sürən ictimai-siyasi sabitliyin əsaslarını dövlət tərəfindən həyata keçirilən uğurlu islahatlar və tətbiq edilən yeniliklər, inkişaf modelləri təşkil edir. İnsan və vətəndaş hüquq və azadlıqlarının ən yüksək səviyyədə təmin edilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, sosial-siyasi təsisatların legitimləşdirilməsi, vətəndaşların siyasi həyatda iştirakına maksimum şərait yaradılması kimi göstəricilər və nəticələr deyilənləri təsdiq edir. Digər tərəfdən, seçki prosesi, onların reallaşdırılma vasitələri və demokratiklik səviyyəsi baxımından da Azərbaycan olduqca yüksək səviyyədə qiymətləndirilir. Əlbəttə, bütün bunlar vətəndaşların siyasi həyatda daha azad və layiqli şəkildə iştirakına spesifik töhfələr verməkdədir. Nəticə etibarilə, vətəndaş-dövlət münasibətləri bütün sahə və sektorlarda ən yüksək səviyyədə təmin edilməkdə və arzulanan nəticələri verməkdədir. Siyasi-hüquqi islahatların mütəmadi qaydada və prinsipiallıqla davam etdirilməsi milli təhlükəsizliyin təmin olunmasına önəmli töhfələr verməklə yanaşı, demokratik inkişafı sürətləndirməkdə və ictimai-siyasi sabitliyin əsaslarını möhkəmləndirməkdədir.

## Azərbaycan demokratik inkişaf yolunda qətiyyətlə irəliləyir

Ölkəmizin daxili siyasət kursunun əsaslarına diqqət yetirərkən tərəddüdsüz qeyd etmək olar ki, Azərbaycan demokratik inkişaf indeksinə görə yüksək səviyyədə qiymətləndirilən ölkələr sırasında yer alır. Demokratik dəyərlərin və təsisatların təşəkkül tapması, mütəmadi surətdə yenilənərək inkişaf etdirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının təmin və müdafiə edilməsi kimi təməl strateji istiqamətlər müstəqil Azərbaycan dövlətinin milli siyasət kursunun əsasını təşkil etməkdədir. Odur ki, bütün bunların fonunda bu gün Azərbaycan demokratik inkişaf yolunda irəliləyən avanqard ölkələr sırasında yer almaqdadır. Ölkəmizdə demokratiya və onun başlıca atributları olan vətəndaş cəmiyyəti və hüquqi dövlətin mütləq komponentlərinin təşəkkül tapması və inkişafını təmin edən başlıca amil isə mütəmadi surətdə sistem-struktur islahatlarının həyata keçirilməsidir. Məhz bütün bunların qanunauyğun nəticəsidir ki, Qərbin aparıcı demokratik dövlətləri və təşkilatları Azərbaycanın demokratiya yoluna sadiq qaldığını və demokratikləşmə prosesini sürətləndirdiyini bəyan etməkdədirlər.

## Ölkəmiz beynəlxalq təhlükəsizliyə fundamental töhfələr verən aktor kimi tanınır

Ölkəmizin xarici siyasət kursunun əsaslarından bəhs edərkən vurğulamaq gərəkdir ki, Azərbaycan regional və qlobal təhlükəsizliyin təmin olunması işində özünəməxsus rol oynamaqdadır.

Ardı Səh. 6

# Prezidentə təbrik məktubları: ali nüfuzun və liderlik faktorunun bariz sübutu!

*Bu amil eyni zamanda Onun şəxsinin, istərsə də ölkəmizin beynəlxalq nüfuzunun ali dərəcədə qiymətləndirilməsinin göstəricisidir*

Əvvəli Səh. 5

Dövlətimiz beynəlxalq təhlükəsizliyin təmin olunması, regional və qlobal təhdidlərin qarşısının alınması istiqamətində dünya siyasətinin müstəqil aktorları ilə çoxtərəfli, bərabərsəviyyəli əməkdaşlıq etməkdədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən praqmatik xarici siyasətlə Azərbaycan Cənubi Qafqaz bölgəsinin, Avrasiya regionunun və bütövlükdə dünyanın hərbi-siyasi, iqtisadi, ekoloji, demoqrafik və enerji təhlükəsizliyinin təmin olunmasında aktiv surətdə iştirak edir. Bunlarla yanaşı, Azərbaycan bir sıra istiqamətlərdəki rasional fəaliyyəti ilə qlobal təhlükəsizliyin təmin olunmasında önəmli rol oynayır. Bir sözlə, bütün bu strateji istiqamətlərdəki fəaliyyətinə və töhfələrinə görə Azərbaycan beynəlxalq təhlükəsizliyin təmin olunması işində vacib tərəfdaş aktor kimi qəbul edilməkdədir.



### Azərbaycan beynəlxalq dialoq mərkəzinə çevrilib

Bütün bunlarla yanaşı, Azərbaycanın inkişafı onu siyasi, iqtisadi və mədəni cəhətdən nəinki regional, hətta qlobal mərkəzə çevirməkdədir. İlk növbədə, siyasi sahədə qazanılan nailiyyətlər Azərbaycanı beynəlxalq ictimaiyyətə daha yaxşı tanıtdırmaqla bərabər, dünyanın diqqətini respublikamıza yönəldə bilib. Bunun ən böyük təsdiqi, qeyd etdiyimiz kimi, 2011-ci ildə Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi olub. Bu, onun göstəricisidir ki, Azərbaycan dünya miqyasında böyük hörmətə malik olan bir dövlətdir. Ölkəmiz beynəlxalq birliyin müstəqil və tamhüquqlu subyekti kimi öz milli maraq və mənafelərini qarşılıqlı hörmət və ortaq faydalanma prinsipləri çərçivəsində həyata keçirir. Bu isə Azərbaycanın müstəqil inkişafını təmin etməklə yanaşı, öz gücünə inamını, eləcə də ölkəmizə olan etimadı artırır.

Azərbaycanın qlobal mərkəzə çevrilməsini göstərən ən bariz cəhətlərdən biri ölkədə çoxsaylı nüfuzlu beynəlxalq tədbirlərin keçirilməsidir. Bu cür beynəlxalq tədbirlərdə dünyanın müxtəlif ölkələrindən olan yüzlərlə nüfuzlu siyasi xadimi, ayrı-ayrı sahələr üzrə ekspertləri, həmçinin mətbuat nümayəndələri bir araya gələrək müxtəlif məsələlər üzrə dialoq, fikir mübadiləsi aparır, qərarlar qəbul edirlər. Bu kimi mühüm hadisələr Azərbaycanın qlobal iqtisadiyyatda artan rolunun beynəlxalq səviyyədə qəbul olunması deməkdir.

Onu da qeyd edək ki, Azərbaycan təkcə siyasi, iqtisadi məsələlərdə deyil, humanitar, mədəni sahələrdə də yeni qlobal mərkəz rolunu oynayır. Azərbaycanın mədəniyyətlərin inteqrasiyasına verdiyi töhfələrdən xəbər verir. Bu tədbirlərin həyata keçirilməsində dövlət başçısının siyasətinə ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, millət vəkili, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva da dəstək olur.

Azərbaycan bu gün dünyaya istər tolerantlıq, istər multikultural,istərsə də iqtisadi inkişaf baxımından yeni model bəxş edib. Azərbaycan xalqının keçmişindən gələn dözümlülük, xoşgörü kimi xüsusiyyətlər multikulturalizm, bərabərlik, tolerantlıq prinsipləri şəklində dövlətin siyasətində əksini tapır. Azərbaycan mədəniyyətlərin inteqrasiyası və tolerantlıq təcrübəsinə malik olan bir ölkədir. Bununla əlaqədar olaraq, ölkəmiz dünya sivilizasiyalarının qovşağı və multikulturalizmin nəzərə çarpan nümunəsi kimi dünyada tanınır. Həmçinin dünyada "sivilizasiyaların toqquşması" prosesinin cərəyan etdiyi, müxtəlif ölkələrdə cəmiyyətdaxili parçalanmalar nəticəsində dini, etnik zəmində konfliktlərin yaşandığı bir vaxtda Azərbaycan sabit və tolerant mühiti ilə diqqət çəkir. Təsadüfi deyil ki, bu gün tolerantlığın Azərbaycan modeli dünyada nümunə ola biləcək səviyyədə qiymətləndirilir.

Bütün bu reallıqlardan bir daha nəticə çıxararaq belə bir qənaətə gəlmək olar ki, bu günlərdə xarici dövlət başçıları və nüfuzlu beynəlxalq təşkilatlar rəhbərləri tərəfindən 28 May Respublika Günü ilə bağlı Prezident İlham Əliyevə ünvanlanan təbrik məktublarının hər birində qeyd edilən faktlar Azərbaycan dövlətinin və xalqının əldə etdiyi uğurlu tərəqqini təsdiq edir.

**Rövşən RƏSULOV**

## Polşanın "Historia" nəşrində Fərid Şəfiyevin Rusiya imperiyasının köçürmə siyasətinə dair məqaləsi dərc olunub

***Polşanın nüfuzlu "Historia" nəşrində Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyevin Rusiya imperiyasının köçürmə siyasəti və bunun Ermənistan-Azərbaycan münaqişəsinə təsirinə dair məqaləsi dərc olunub.***




AZƏRTAC xəbər verir ki, məqalədə ilk olaraq Rusiya imperiyasının XIX əsrdə erməniləri Cənubi Qafqaza köçürmə siyasətinin əsas məqamları nəzərdən keçirilir. Həmçinin regionda baş vermiş demoqrafik dəyişikliyin XX əsrdə Ermənistan ilə Azərbaycan arasında gərginləşən münaqişəyə təsiri təhlil edilir.

Müəllif bildirir ki, XIX əsrin əvvəllərində Qacarlar və Osmanlı imperiyaları ilə sərhəddə yerləşən Cənubi Qafqaz Rusiya üçün vacib strateji əhəmiyyət daşıyırdı. Buna görə də Rusiya imperiyası ermənilərin regiona köçürülməsi barədə qərar qəbul edir. Fərid Şəfiyev qeyd edir ki, ilk köçürmə 1828-ci ildə 16 mart-11 iyun tarixləri arasında baş tutub. Bu zaman 40 min erməni Qafqaza köçürülüb.

Köçürmənin ikinci dalğası isə 1829-cu ildə həyata keçirilib. Bildirilir ki, XIX əsrdə Rusiya imperiyası tərəfindən həyata keçirilən köçürmə kampaniyaları Cənubi Qafqazda radikal dəyişikliklərə səbəb olub. Bundan isə daha çox azərbaycanlılar əziyyət çəkiblər. Belə ki, onların əraziləri ilə yanaşı, iqtisadi və sosial inkişafı məhz imperialist ideyaları naminə üstünlüyü ermənilərə verən Rusiya tərəfindən idarə olunub.

Müəllif köçürülmə siyasəti ilə etnik-ərazi münaqişələri arasında bağlılığı qeyd edərək yazır ki, qeyri-bərabər demoqrafik dəyişiklik Bakı kimi böyük şəhərlərdə də sabitliyin pozulmasına səbəb olub və 1905-1906-cı illərdə etniklərarası qanlı toqquşmalar baş verib. "Demoqrafik vəziyyət, yəni, yaşadıqları ərazilərdə say üstünlüyü etnik qrupları həmin torpaqlara iddia etməyə həvəsləndirib",- deyə müəllif vurğulayıb.




# Milli Məclisin növbədənkənar sessiyasının ilk iclası keçirilib

***İ**yunun 1-də Milli Məclisin 2020-ci il növbədənkənar sessiyasının ilk iclası keçirilib. İclası parlamentin Sədri Sahibə Qafarova açıb. Əvvəlcə Azərbaycanın dövlət himni səsləndirilib. Gündəliyin təsdiqindən sonra deputatlar cari məsələləri müzakirə ediblər.*

Milli Məclisin komitə sədrləri Zahid Oruc, Qənirə Paşayeva, Bəxtiyar Əliyev, Hicran Hüseynova, Siyavuş Novruzov, deputatlardan Nurlan Həsənov, Ceyhun Məmmədov, Erkin Qədirli, Azər Badamov, Elman Nəsirov, Anar İsgəndərov, Rauf Əliyev, İsa Həbibbəyli, Azay Quliyev, Razi Nurullayev, Sahib Alıyev, Aqil Abbas, Hikmət Məmmədov, Aydın Mirzəzadə, Azər Kərimli, Fazil Mustafa, Sabir Rüstəmxanlı, Məlahət İbrahimqızı ölkə gündəmində baş verən önəmli məsələlərdən söz açıblar. Çıxışlarda dövlət qurumlarında ictimai şuraların yaradılması, sosial mediada tanınmış şəxslərə qarşı aqressiv və cinayət hüququna zidd şəkildə aparılan müzakirələrin qarşısının alınması üçün belə şəbəkə operatorlarına müəyyən öhdəliklərin qoyulması, qəzalı evlərin bərpasına diqqətin artırılması, QHT-lərin maliyyə mənbələrinin şaxələndirilməsi üçün qanunvericilikdə müvafiq dəyişikliyin edilməsi, bəzi rayon və kəndlərdə onlayn dərslərin daha da aktiv hal alması üçün internet ötürücülərinin gücləndirilməsi kimi təkliflər səsləndirilib.

Sonra gündəliyə daxil edilən İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin (ikinci oxunuş) müzakirəsinə başlanılıb. Sədr Sahibə Qafarova bildirib ki, bu məsələ Milli Məclisin mayın 31-də keçirilən iclasında birinci oxunuşda qəbul edilib.

Sənədi təqdim edən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Fəzail Ağamalı deyib ki, ölkəmizdə karantin rejiminin bir qədər yumşaldılması cəmiyyətdə bəzi vətəndaşların məsuliyyətsiz davranışına yol açıb. Parklarda, küçələrdə, ictimai yerlərdə sosial məsafənin qorunmaması, tibbi maskalardan istifadə edilməməsi ciddi narahatlıq doğurur. Bununla əlaqədar Nazirlər Kabineti "Karantin rejimində tənəffüs yollarını qoruyan tibbi maskalardan istifadə qaydalarının tətbiqi ilə əlaqədar" qərar verib. Məcəlləyə edilən dəyişikliklər həmin hüquqi addımların davamıdır. Sənəd pandemiya dövründə sanitar-gigiyena qaydalarının tələblərinin pozulmasına görə inzibati tənbeh hallarını müəyyən edir və bu dövrdə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı tələblərin pozulmasına görə cərimələri müəyyənləşdirir.

Dəyişikliyə əsasən, karantin rejimi dövründə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə fiziki şəxslər 50 manat, vəzifəli şəxslər 100 manat, hüquqi şəxslər 200 manat məbləğində cərimə ediləcək. Bu xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh verməhaqqında qərar qüvvəyə mindiyi gündən epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövrü başa çatanadək təkrar törədilməsinə görə fiziki şəxslər 100 manat, vəzifəli şəxslər 200 manat, hüquqi şəxslər 400 manat məbləğində cərimələnəcək.

Fəzail Ağamalı deputat həmkarlarına pandemiya ilə əlaqədar ölkədə yaranmış vəziyyətə görə belə bir vacib sənədin hazırlanmasına dəstək verdiklərinə görə təşəkkür edib. O, sənədin birinci oxunuşda müzakirələri zamanı deputatlar tərəfindən verilən təkliflərin əhəmiyyətlilərinin layihədə işçi qrupu tərəfindən dəyərləndirildiyini vurğulayıb.

Sonra qanun layihəsi ətrafında müzakirələr aparılıb. Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, komitə sədri Siyavuş Novruzov, deputatlardan Fazil Mustafa, Azər Badamov, Razi Nurullayev, Əli Məsimli, Cavid Osmanov, Musa Qasımlı, Naqif Həmzəyev hazırkı dövr üçün olduqca mühüm əhəmiyyətə malik olan sənədi dəstəklədilər, təkliflərini bildirdilər. İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklər səsə qoyularaq ikinci oxunuşda qəbul edilib. Bununla da Milli Məclisin iclası öz işini başa çatdırıb.

# "Qarşıda görüləsi işlər kifayət qədər çoxdur"



"**B**u gün dünya iqtisadi və maliyyə böhranı yaşayır. Amma ölkəmizdə cənab İlham Əliyevin rəhbərliyi altında 2003-cü ildən başlayan sosial-iqtisadi inkişaf eyni templə davam etməkdədir. Bu inkişaf dövlətə imkan verir ki, öz vətəndaşlarının, xüsusilə də onların ən həssas hissəsi olan qaçqın və məcburi köçkünlərin sosial rifah halının yaxşılaşdırılması istiqamətində böyük layihələr həyata keçirsin. İndiyədək bu kateqoriyadan olan 300 mindən çox insanın mənzil-məişət şəraitinin yaxşılaşdırılması dediklərimizə sübutdur. Dövlət başçısının söylədiyi kimi,"məcburi köçkünlərlə bağlı olan heç bir layihədə heç bir yubanma yoxdur, heç bir proqramın ixtisarı nəzərdə tutulmur". Bunu SİA-ya millət vəkili İlham Məmmədov deyib.

Qarşıda görüləsi işlərsə kifayət qədər çoxdur. Prezident bunun anonsunu da verib: "Bu il qarşıya hədəf qoyulub ki, 7 min, bəlkə də 8 min məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin edilsin. Əgər biz buna nail olsaq, bir il ərzində həm Bakı şəhərində, Sumqayıt şəhərində və digər şəhərlərdə təqribən 40 minə yaxın insan yeni evlərə köçürüləcək. Bu işlər ardıcıllıqla aparılır. Biz gələn ilin İnvestisiya Proqramında da bu məqsədlər üçün vəsait ayıracağıq".

Deputat bildirib ki, pandemiya, neftin qiymətinin əhəmiyyətli dərəcədə aşağı düşməsi müəyyən çətinliklər yaratsa da, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən düzgün iqtisadi siyasətin nəticəsində inkişaf tempi qorunub saxlanılır. Aparılan islahatlar insan amilinin yüksəlişinə xidmət edir. İqtisadiyyatla bərabər sosial sahələr də inkişaf etdirilir. Görülən hər iş, qəbul edilən hər qərar "sosial dövlət" konsepsiyasına sadiqliyin təsdiqidir. Cənab İlham Əliyev ölkəmizin inkişafı, xalqımızın sosial rifahı naminə fəaliyyəti ilə hər bir azərbaycanlının Prezidenti olduğunu uğurla nümayiş etdirir. Belə bir liderin rəhbərliyi altında Azərbaycan hələ bundan da gözəl günlər yaşayacaq. Xalqa və dövlətə şərəfli xidmət bunu zəruri edir".

***Ceyhun Rasimoğlu***

# Qənirə Paşayeva: "Qobu-Park"da peşəkarlıqla yanaşı, yanar ürəyi, sevgi ilə yanaşmanı görürük



***M**illi Məclisin Mədəniyyət Komitəsinin sədri, siyasi elmlər doktoru Qənirə Paşayeva Azərbaycan dövlətinin həssas təbəqədən olan vətəndaşlara qayğısı, o cümlədən məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılışı və bu kompleksin inşasında bilavasitə rolu olan Heydər Əliyev Fondunun xeyirxah fəaliyyəti ilə bağlı AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik:*

- Qənirə xanım, yeni inşa edilmiş "Qobu Park-3" yaşayış kompleksinin açılışında Prezident İlham Əliyev bildirdi ki, kompleks Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilib. Milli Məclisin deputatı kimi fondun gündən-günə genişlənən fəaliyyətini necə qiymətləndirirsiniz?

- Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva mayın 28-də məcburi köçkünlər üçün inşa edilmiş "Qobu Park-3" yaşayış kompleksinin açılışında iştirak etdilər. "Qobu Park-1" və "Qobu Park-2" kompleksi kimi, bu növbəti layihə də məhz Heydər Əliyev Fondu və onun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında həyata keçirilib. Yüksək keyfiyyəti ilə seçilən üç layihə əsasında Qobu qəsəbəsində inşa edilən yaşayış komplekslərində, ümumilikdə, 3700-ə yaxın məcburi köçkün ailəsi yerləşdiriləcək. Bu da 20 minə yaxın məcburi köçkünün mənzil-məişət şəraitinin yaxşılaşdırılması deməkdir.

Bir deputat və vətəndaş kimi deyə bilərəm ki, Heydər Əliyev Fondu məsuliyyətli fəaliyyəti ilə fərqlənir. Fond tərəfindən əhalinin ən müxtəlif spektrli problemlərinə həssas yanaşması diqqət çəkir. Qurum öz fəaliyyətində ardıcıllıq, davamlılıq, əlçatanlıq, funksionallıq, peşəkarlıq prinsiplərini əsas götürərək, problemlərin dəqiq müəyyənləşdirilməsi və ən əlverişli variantların işlənməsinə üstünlük verir. Məsələn, peşəkarlıq məsələsinə gəlincə qeyd etməliyəm ki, həm adi, həm də tənqidçi ruhu ilə yanaşdıqda Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrin mükəmməlliyini görməmək mümkün deyil. Bu da təbii ki, işin peşəkarlıqla və məsuliyyətlə görüldüyünü və bir komanda işinin mövcudluğunu deməyə əsas verir.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən və ölkəmizin çiçəklənməsinə xidmət edən bütün layihələr insanda qürur hissi yaradır. Bu layihələr həm də Azərbaycan həqiqətlərinin beynəlxalq aləmdə yayılmasına, mədəni irsimizin qorunmasına xidmət edir. Bunları deməkdə məqsədim odur ki, çoxfunksiyalı, çoxşaxəli fəaliyyət Fondun artıq xarakterinə çevrilib və onun simasını müəyyənləşdirir. Ona görə də, bu işdə peşəkarlıqla yanaşı, yanan ürəyi, sevgi ilə yanaşmanı görürük. Bunu "Qobu Park-3" yaşayış kompleksinin açılışı bir daha sübut etdi.

- Necə düşünürsünüz, bu yaşayış kompleksinin açılışı həm də ölkəmizin iqtisadi potensialını da göstərmiş oldu...

-Tamamilə doğrudur. Əgər Azərbaycanda bir Fond bu cür irimiqyaslı layihənin icrasını qısa bir müddətdə yerinə yetirə bilirsə, bu özü qeyri-adi hadisədir və önəmli dərəcədə, iqtisadi gücə əsaslanır. İqtisadi güc dedikdə, yalnız maddi imkanları nəzərdə tutmuram, o imkanların səmərəli istifadəsini, işin məqsədyönlü təşkilini, hansı problemə prioritetlik verilməsini və nəhayət, inşaatı keyfiyyət və sürətlə həyata keçirə bilən mütəxəssislərimizin, ixtisaslaşmış şirkətlərimizin mövcudluğunu da nəzərdə tuturam. Təsadüfi deyil ki, Prezident İlham Əliyev hər üç kompleksin eyni şirkət -"Paşa Holdinq" tərəfindən inşa edildiyini xüsusi vurğuladı. Bu da etimadın, görülmüş işlərdən razılığın ifadəsidir. Həmin komplekslərdə yaşayış binalarından başqa, insanların asudə vaxtının təşkili, sağlamlığının qorunması, təhsili, məşğuliyyətini əhatə edən güclü infrastruktur qurulub. 20 minə yaxın vətəndaşımızı ağuşuna alan Qobu qəsəbəsi öz gözəlliyi ilə göz oxşayır. Halbuki buralar əvvəllər boş düzənlik idi. Bir sözlə, Heydər Əliyev Fondu qəsəbədə "dörd divar"dan ibarət deyil, vətənpərvərlikdən, sevgidən "yoğrulmuş" özünəməxsus "Qobu-Park" mühiti yarada bilib. Təsəvvür edin, yeni mənzilin açarını məhz 28 May - Respublika Günündə almaq bayrama bayram qatmaq, könülləri şad etmək, ümidləri inama çevirmək deməkdir və dövlətimiz bunu etdi.

Bu, Heydər Əliyev Fondunun dəst-xəttidir, bu, Fondun "qızıl" kollektivinin fədakarlığıdır. Əlbəttə, bu həm də tikinti işlərində əməyi keçən hər kəsin Mehriban xanım Əliyevanın adına layiq iş ərsəyə gətirməsinin təcəssümüdür.

- Qənirə xanım, "Qobu Park-3" yaşayış kompleksi məcburi köçkün vətəndaşlarımız üçün inşa edilib. Layihənin məhz bu kateqoriyadan olan vətəndaşlarımıza yönəlik olması təşəbbüsünün özü nədən xəbər verir?

- Heydər Əliyev Fondunun fəaliyyətindən ana xətt kimi keçən mühüm prinsip məhz əhalinin həssas təbəqəsinə olan diqqət və qayğıdır. Fond öz yurd-yuvalarından məcburi köçkün salınmış insanlarımızla bağlı məsələlərə həmişə təxirəsalınmaz vəzifə kimi yanaşıb. Mən "Qobu Park" kimi nəhəng layihənin mövcud keyfiyyət və sürətini də məhz bu amillə bağlayardım.

Ən mühümü isə odur ki, "Qobu-Park" yaşayış kompleksləri sabah, birisi gün işğaldan azad olunacaq şəhər və qəsəbələrimizdə tikinti-bərpa, abadlıq, geniş quruculuq işləri üçün bir başlanğıc və belə demək mümkünsə, baş məşqdir. İnşallah, torpaqlarımızı azad etdikdən sonra daha gözəl, daha rahat və daha miqyaslı yaşayış kompleksləri, abad məhəllələr, geniş küçələr salınacaq, yeni infrastruktur layihələri həyata keçiriləcək. Bütün bunlar vətəndaşlarımıza ötən illərin ağrı-acılarını unutmaqda, yaralarını sarımaqda mühüm rol oynayacaq. Çünki bu işlərin mayasına ana şəfqəti, rəhbər qətiyyəti qatılmış olacaq.

## Birinci sinifdə oxuyacaq sağlamlıq imkanları məhdud uşaqların müayinəsinə start verilib



İyunun 1-də 2020-2021-ci tədris ilində xüsusi təhsildə I sinfə qəbul olunacaq və həmçinin təkrar müayinəsi tələb olunan sağlamlıq imkanları məhdud uşaqların müayinəsinə start verilib.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Psixoloji-tibbi-pedaqoji komissiyalar tərəfindən həyata keçirilən proses sentyabrın 30-dək davam edəcək. Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin hazırladığı "Vətəndaş qəbulu həyata keçirən qurumlarda koronavirus (COVID-19) infeksiyasının profilaktikasına dair metodiki göstərişlər"ə müayinə zamanı riayət olunmasına və eləcə də müayinə tarixlərinə dair təlimat məktubu yerli təhsili idarəetmə orqanlarına göndərilib.

## Azərbaycanda pul bazası artıb



İyunun 1-nə ölkədə pul bazası 10 milyard 921,2 milyon manat təşkil edib. AZƏRTAC Mərkəzi Banka istinadla xəbər verir ki, bu göstərici mayın 1-i ilə müqayisədə 855,5 milyon manat çoxdur.

## ABŞ rəhbərliyi dərin düşünməli və nəticə çıxarmalıdır



"Aydın məsələdir ki, ABŞ-da baş verən ixtişaşlar yatıracaqlar. Bir çox insan həlak olacaq, bir çoxu həbs olunacaq, Milli Qvardiya öz sözünü deyəcək, ölkədə güc strukturları onlara qarşı çox sərt addımlar atacaq. Lakin bütün bunlara baxmayaraq ABŞ-dakı bu qarşıdurmalar çox dərin izlər buraxacaq". Bunu SİA-ya açıqlamasında politoloq Fikrət Sadıqov deyib.

Onun sözlərinə görə, əvvəla bunu yaddan çıxarmaq olmaz ki, ABŞ-da irqi ayrıseçkiliklə bağlı polis zorakılığı birinci dəfə deyil: "Amerikanın 40 şəhərində artıq üsyanlar baş verir. Qaradərili insanlar öz hüquqlarını tələb edərək hakimiyyətə qarşı çıxışlar edirlər. Vaşinqtonda Ağ Evin qarşısında əhali yığışıb müxtəlif şuarlarla hökumətdən ədalət tələb edirlər. Tramp özü hansısa bunkerdə gizlədilib və Ağ Evdə çalışanlara tapşırılıb ki, işə gəlməsinlər. Bu faktiki olaraq fövqəladə vəziyyətdir".

F.Sadıqov vurğulayıb ki, bu cür fövqəladə vəziyyətin səbəbləri məhz elə onların özündə-güc strukturlarında, polislərindədir: "Çünki bu vəhşilik gec-tez belə nəticələnməli idi. Qaradərili insanlar bu cür hallar çox dözüb, göz yumub, lakin bütün bunlara əbədi olaraq göz yummaq mümkün deyildi. Burada bir məsələ də var. Əlbəttə bu ixtişaşlar yatırılsa da belə, bu seçkiqabağı kompaniyaya təsir edəcək. Bir tərəfdən pandemiya, digər tərəfdən ölkədə belə bir narazılıq, həbs olunanlar, ölənlər, yaralananlar və.s seçki kompaniyalarına təsirsiz ötüşə bilməz. Düşünürəm ki, bütün bunlar Trampın reytinqlərinə də böyük mənfi təsir göstərəcək. Biz bu gün bu reallıqları müşahidə edirik və bütün bunların fonunda deyə bilərəm ki, hər halda ABŞ rəhbərliyi bu məsələləri dərin düşünməli və müəyyən nəticə çıxarmalıdır".

# Küveyt qəzetlərində Azərbaycanla bağlı məqalələr dərc olunub

***Küveytdə gündəlik ərəb dilində nəşr edilən və böyük oxucu auditoriyasına malik "Əl-Jareeda", "Əl-Vasat" qəzetlərinin və "Dasmannews" elektron xəbərlər qəzetinin 28 may tarixli buraxılışlarında "Azərbaycan səfirliyi: Ölkəmiz dünya miqyasında mühüm rol oynayan dövlətə çevrilmişdir", "Müsəlman Şərqində ilk parlamentli Respublikanın qurulmasından 102 il keçir" və "Azərbaycan səfirliyi: Küveyt milli prinsiplərə əsaslanan tarazlaşdırılmış siyasət modelidir" sərlövhəli məqalələr dərc edilib.***




Azərbaycanın Küveytdəki səfirliyindən AZƏRTAC-a bildiriblər ki, məqalələrdə 102 il əvvəl 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından bəhs olunur. Bildirilir ki, Azərbaycan tarixində ilk parlamentli respublika olan Xalq Cümhuriyyəti bütün Şərqdə, o cümlədən İslam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət olub və bir sıra böyük dövlətlər tərəfindən de-fakto tanınıb. Azərbaycan Xalq Cümhuriyyəti bir çox ölkələrdən əvvəl qadınlara seçki hüququ verib. Cəmi 23 ay yaşamasına baxmayaraq, Xalq Cümhuriyyəti həmin dövrdə ölkə həyatının bir çox sahələrində, o cümlədən dövlət və hərbi quruculuq, iqtisadiyyat və mədəniyyət, təhsil və səhiyyə sahələrinin inkişafı istiqamətində bir sıra mühüm addımlar atıb, milli valyutasını dövriyyəyə buraxıb, dövlət bankı yaradıb və digər mühüm iqtisadi islahatlar həyata keçirib.

Məqalələrdə Azərbaycanın 1991-ci ildə müstəqilliyini bərpa etdiyi vurğulanır, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizin qazandığı nailiyyətlərdən bəhs olunur. Qeyd olunur ki, Ulu Öndərin rəhbərliyi ilə hazırlanmış milli enerji strategiyası xalqın rifahı və tərəqqisinə yönəldilib, 1994-cü ilin sentyabr ayında Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi haqqında dünyanın ən iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalanıb.

Yazılarda Mərkəzi Asiya, Cənubi Qafqaz və Avropa arasında ticarət əlaqələrini və iqtisadi əməkdaşlığı gücləndirmək üçün tarixi "İpək Yolu" nun bərpasına Azərbaycanın verdiyi dəstək xüsusi vurğulanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurlu inkişafının davam etdiyi qeyd edilir. Məqalələrdə Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən qlobal layihələrdən bəhs olunur, ölkəmizdə aparılan islahatlar iqtisadiyyatın daha da inkişafına təkan verdiyi qeyd edilir. Bu gün Azərbaycanın güclü bir ölkəyə çevrildiyi, Mərkəzi Asiya və Xəzəryanı dövlətlər arasında iqtisadiyyatı ən sürətlə inkişaf edən bir ölkə olduğu diqqətə çatdırılır. Ölkəmizdə investisiyanın təşviqi mexanizminin həyata keçirildiyi və əlverişli investisiya mühitinin yaradıldığı, Azərbaycan təbii sərvətlərlə, xüsusilə neft və qaz ilə zəngin bir ölkə olduğu bildirilir.

Eyni zamanda, Azərbaycanın zəngin mədəni irsə sahib olan bir ölkə olduğu, Azərbaycanda müxtəlif mədəniyyətlərin, millətlərin nümayəndələrinin bərabər şəkildə yaşadığı, bunun bir çox ölkələrə nümunə olduğu qeyd edilir.

Eyni zamanda, Prezident İlham Əliyev Azərbaycanın suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızın danışıqlar yolu ilə azad edilməsi, eləcə də inkişafın dayanaqlılığının təmin edilməsi istiqamətində yorulmaz fəaliyyətini davam etdirdiyi xüsusilə vurğulanıb.

Göstərilənlərlə yanaşı, ölkəmizin taleyüklü problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Küveyt Dövlətinin daim ölkəmizin haqlı mövqeyini dəstəklədiyi və bu mövqeyin Azərbaycan xalqı və hökuməti tərəfindən yüksək qiymətləndirildiyi oxucuların diqqətinə çatdırılıb.

## BP Azərbaycandakı neft-qaz layihələrinə xərclədiyi vəsaiti açıqlayıb



BP indiyədək Azərbaycandakı neft-qaz layihələrinə xərclədiyi vəsaitin həcmini açıqlayıb. AZƏRTAC BP-nin "2019-cu il üçün Azərbaycan üzrə Davamlı İnkişaf hesabatı"na istinadla xəbər verir ki, şirkət 1995-ci ildə əməliyyatların başlamasından bəri (ötən ilin sonuna kimi) Azərbaycanda "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar bloku, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri (BTC), "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri (CQBK) layihələrinə 75 milyard dollar əsaslı xərclər çəkib.

## Azərbaycanda daha 168 nəfər koronavirusa yoluxdu




Azərbaycanda koronavirus infeksiyasına daha 168 yoluxma faktı qeydə alınıb, 80 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1940, 1952, 1955, 1959 və 1962-ci il təvəllüdlü 5 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 5662 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 3508 nəfər müalicə olunaraq sağalıb, 68 nəfər vəfat edib, 2086 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 55 nəfərin vəziyyəti ağır, 69 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir. Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 302.933 test aparılıb.

# COVID-19-la mübarizə hər kəsin gündəlik həyat tərzinə çevrilməlidir



***Dünyanı bürüyən, artıq birinci mərhələsi başa çatan, hətta bəzi ölkələrdə ikinci dalğası müşahidə olunan, sosial və iqtisadi fəsadları getdikcə dərinləşən koronavirus pandemiyası hər bir ölkə üçün sınaq oldu. Təbii ki, hər bir dövlət bu sınaqdan az itki ilə çıxmaq üçün malik olduğu imkanlara, təcrübəyə uygun addımlar atır. Reallıq budur ki, əksər dünya ölkələrində koronavirus pandemiyasının istər insanların sağlamlığına, istərsə də iqtisadiyyata vurduğu zərbələr ölçüyəgəlməz dərəcədə böyükdür. Gündən-günə yoluxma və ölüm hallarının artması bir siqnal, çağırışdır. Epidemiya başlayan gündən etibarən hər zaman olduğu kimi, Azərbaycan yenə də öz təkmil təcrübəsi ilə dünyanın diqqətində oldu. Ölkə daxilində, eyni zamanda, beynəlxalq səviyyədə həyata keçirilən tədbirlər Azərbaycan dövlətinin məsələyə dərhal adekvat reaksiya verdiyini və bundan uğurla çıxmaq üçün təkmil yollar axtardığını ortaya qoydu.***

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə bildirib.

V.Rəhimzadə qeyd edib ki, istənilən məsələnin həllində başlanğıc mərhələ önəmli rol oynayır. Azərbaycanın ilk gündən atdığı addımların təqdir olunması, Ümumdünya Səhiyyə Təşkilatının rəsmilərinin görülən işləri yüksək dəyərləndirmələri səbəbsiz deyil. "Koronavirusla bağlı ölkələr indi özlərini təcrid ediblər, bu da təbiidir. Biz indi görürük ki, hətta bir-birinə çox yaxın olan ölkələr, təşkilatlar, artıq hərə öz problemlərini həll edir və müxtəlif ölkələrdə bu məsələyə yanaşma da fərqlidir. Hesab edirəm ki, bizim yanaşmamız ən geniş və ən düzgün yanaşmadır", - söyləyən dövlətimizin başçısı İlham Əliyev vurğulayır ki, ilk növbədə, qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində xəstəliyin geniş yayılmaması üçün addımların atılması əsas idi. Vətəndaşlardan daha məsuliyyətli olmaq tələb edilirdi. Dünya miqyasında müqayisə apardıqda Azərbaycanda vəziyyətin daha yaxşı olduğu diqqətdən kənarda qalmır. Məhz bunun nəticəsidir ki, ölkəmiz birinci mərhələni az itki ilə başa vurdu. Amma bu, o demək deyil ki, pandemiya sona çatıb. Onun ikinci dalğasının baş verməsi qaçılmazdır. Bunun üçün qabaqlayıcı tədbirlərin davam etdirilməsi bu günümüzün əsas tələbləri sırasındadır.

O deyib: "Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bütün çağırışlarında vətəndaş məsuliyyəti əsas yer tutur. Mehriban Əliyeva koronavirus infeksiyası ilə bağlı xalqımıza dəfələrlə etdiyi müraciətində bildirir ki, vaxtında görülmüş və düşünülmüş tədbirlər sayəsində ölkəmiz özünü həqiqətən də faciəli ssenaridən qurtara bildi: "Çətin sınaq günlərində xalqımız bir daha ən yaxşı xüsusiyyətlərini nümayiş etdirdi və bu, sonsuz təşəkkürə layiqdir. Biz öz Vətənimizin təhlükəsizliyinin qayğısına qalırdıq və qalırıq, təhlükəyə qarşı yenilməz birlik nümayiş etdiririk". Bu inam da ifadə olunur ki, müdrik xalqımızın ən gözəl xüsusiyyətləri - ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik".

Baş redaktor bildirib ki, ölkəmizdə koronavirus pandemiyasına yoluxanların müalicəsinin lazımi səviyyədə təşkili görülən qabaqlayıcı tədbirlərlə yanaşı, Azərbaycanın səhiyyə sisteminin təkmilliyinə də aydınlıq gətirir. 20 xəstəxana koronavirus xəstələrinin ixtiyarına verilib ki, onlar ən müasir avadanlıqlarla təchiz edilib. Pandemiya dövründə Bakıda 575 çarpayılıq "Yeni klinika" tibb müəssisəsi, digər 3 şəhərdə ümumi çarpayı sayı 500-dən artıq olan yeni xəstəxanalar istifadəyə verilib. Qısa müddətdə 6-sı dövlət, 4-ü özəl sahibkarlar tərəfindən tikilməkdə olan, hər biri 200 çarpayılıq 10 müasir modul tipli xəstəxananın istifadəyə verilməsi nəzərdə tutulub. Artıq onlardan biri istifadəyə verilib. Koronavirusla Mübarizəyə Dəstək Fonduna 110 milyon manatdan çox ianə toplanıb ki, bu da xəstələrin müalicəsi üçün zəruri olan bütün imkanların yaradılmasına yönəldilib. Dövlətimizin başçısı İlham Əliyev bu mübarizədə əsas məsuliyyətin həkimlərin üzərinə düşdüyünü xüsusi vurğulayır. Sağlamlığımızın keşiyində dayanan həkimlərimizin əməyi dövlətimiz tərəfindən yüksək dəyərləndirilir və alqışlanır. "Ona görə həkimlər ən yüksək qiymətə layiqdirlər", - söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirir ki, həkimlərə həmrəylik və dəstək üçün müxtəlif aksiyalar keçirilir və keçiriləcək. Ölkəmizin müasir memarlıq rəmzlərindən biri olan "Alov qüllələri"ndə də həkimlərə münasibət öz aydın ifadəsini tapıb.

Qeyd olunub ki, dövlətimizin vətəndaşlarını koronavirus pandemiyasından etibarlı müdafiəsini təşkil etmək istiqamətində atdığı addımlar dövlət-vətəndaş birliyinin vacibliyini təsdiqləyir. Bu çağırışlar günümüzün əsas tələbinə çevrilib. "Özümüzü qoruyaq, böyüklərimizə sahib çıxaq, əzizlərimizə dəstək olaq. Bu dəstək üçün təbii ki, ehtiyac olmadığı təqdirdə evdə qalmağımız, səbəbsiz yerə küçəyə çıxmamağımız tələb olunur. Bu halda özümüzlə yanaşı, doğmalarımızı, ətrafımızdakı insanları virusa yoluxmadan qoruyar, onların sağlamlığına vətəndaş kimi dəstək olarıq", - söyləyən baş redaktor vurğulayıb ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın xüsusi karantin qaydalarını sərtləşdirməsi, yaxud yumşaltması da vətəndaşların sağlamlığının təminatında, eyni zamanda, onların əvvəlki həyata qayıtmalarında əhəmiyyətli rol oynayır. Karantin qaydalarının zaman-zaman yumşaldılması müəyyən dövr üçün statistik rəqəmlərə əsaslanır. Bir mühüm məqamı da xüsusi qeyd etməliyik ki, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə 24 martdan elan edilən karantin qaydalarında yaşı 65-dən çox olan şəxslərin evdə qalması məsləhəti böyüklərimizə olan diqqətin bariz nümunəsi kimi dəyərləndirildi. Hətta dövlətimizin başçısı İlham Əliyevin Sərəncamına uyğun olaraq pandemiyaya qarşı mübarizə tədbirləri çərçivəsində yaşı 65-dən yuxarı olan 176 məhkum azadlığa buraxıldı. Həmçinin yaşı 65-dən çox olan tənha şəxslərə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sosial xidmətlər göstərilir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bütün həmvətənlərimizi vətəndaş məsuliyyəti nümayiş etdirməyə, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tələblərinə ciddi riayət etməyə çağıraraq bildirir ki, böyüklərinizi qoruyun. Virusa yoluxmuş insanların mütləq əksəriyyətində xəstəlik yüngül formada keçir və sağalma ilə nəticələnir. Daha çox yaşlı nəslin nümayəndələri, xroniki xəstəlikdən əziyyət çəkənlər, immuniteti zəif olanlar xüsusi risk qrupuna aiddir. Onu da qeyd edək ki, karantin qaydalarının yumşaldılmasında yer alan mühüm məqamlardan biri də yaşı 65-dən yuxarı olan vətəndaşlar üçün qadağalar may ayının 18-dən götürüldü. Amma bununla yanaşı, belə bir çağırış edildi ki, ehtiyac duyulduğu təqdirdə evdən çıxmaq gərəkdir.

V.Rəhimzadə bu məqamı təəssüf hissi ilə vurğulayıb ki, karantin rejimi yumşaldılandan və sərt qadağalar aradan qaldırılandan sonra, yeni yoluxma hallarının sayında artım müşahidə olunmağa başlayıb. Əldə edilmiş pozitiv nəticəni qoruyub saxlamaqda çətinliklər yaranıb. Təbii ki, buna səbəb insanlarda arxayınlıq hissinin yaranması, pandemiyanın ümumiyyətlə, yoxa çıxması barədə təəssüratların formalaşmasıdır. Bugünkü gündə maarifləndirmə işlərinin daha da genişləndirilməsinə böyük ehtiyac vardır. Prezident İlham Əliyev bildirir: "Bəziləri hesab edir ki, bəli, virus daha yoxdur, bütün dünya böhran içindədir, Azərbaycan isə sanki dənizdə bir adadır, burada hər şey yaxşıdır və yaxşı olacaq. Əlbəttə, bir çox ölkələrə nisbətən yaxşıdır, ancaq buna mütləq formada yaxşı demək olmaz". Hazırkı dövrdə pandemiya ilə səmərəli mübarizə bilavasitə vətəndaşların davranışı və məsələyə məsuliyyətlə yanaşmasından, eləcə də fəaliyyətinə icazə verilən sahələrdə rəhbər şəxslərin karantin rejimi qaydalarına riayətdən birbaşa asılıdır.

"Bu gün hər kəs maarifləndirmə işinin fəal iştirakçısı olmalıdır", - söyləyən V.Rəhimzadə qeyd edib ki, hər bir şəxs sosial məsuliyyətin irəli gələrək özünü, yaxınlarını və digər cəmiyyət üzvlərini qorumaq üçün mövcud sanitar-gigiyenik qayda və tələblərə ciddi riayət etməli, başqalarını da bu fəaliyyətə çağırmalıdır. Nəzərə alaq ki, ölkəmiz pandemiya dövründə digər tədbirlərlə yanaşı, tibbi maska çatışmazlığının yaşanmaması üçün iki müəssisənin istifadəyə verilməsinə nail oldu. Müsbət nəticələrin davamlılığını təmin etmək üçün maarifləndirmə işləri daha geniş vüsət almalıdır. Koronavirus infeksiyasının müalicəsi üçün zəruri dərman preparatı, həmçinin bu xəstəliyə qarşı peyvənd tapılmadığından virusla mübarizə hər kəsin gündəlik həyat tərzinə çevrilməlidir.

V.Rəhimzadə qeyd edib ki, sosial məsuliyyətin artırılması, ictimai nəzarətin gücləndirilməsi bütün cəza tədbirlərinin ən önəmlisidir. Hər kəs özünə və doğmalarına, ətrafındakı insanlara diqqət, qayğısını nizam-intizam qaydalarına riayət etməklə nümayiş etdirə bilər. Sosial məsafənin qorunması, tibbi maskalardan istifadə edilməsi, gigiyena qaydalarına əməl olunması bu dəstəyimizin ən yüksək ifadəsi olar. Artıq ölkəmizdə də epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövründə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmasına görə cərimələr müəyyənləşdirilib. Bu cərimələr sosial məsuliyyət hissinin artırılmasına necə təsir göstərəcək, bunu növbəti dəfə açıqlanacaq statistik rəqəmlər göstərəcək. Reallıq budur ki, Azərbaycan pandemiya təcrübəsi ilə dünyaya nümunədir. Dünyaya birlik, həmrəylik çağırışını edən və bunu əməldə təsdiqləyən Azərbaycan daxildəki birliyimiz ilə də nümunədir. "Biz birlikdə güclüyük!".

## Baş Prokurorluq: Yalan informasiyalar yayan KİV-lər barəsində ən ciddi tədbirlər görüləcək



***Bəzi kütləvi informasiya vasitələrində Bakı Şəhər Prokurorluğunun əməkdaşı Yusif Səməndərovun guya yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxması səbəbindən vəfat etməsi, eləcə də Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) tərəfindən Bakı Şəhər Prokurorluğunda onunla ünsiyyətdə olan şəxslərdə koronavirusla bağlı edilmiş test nəticələrinin bir neçə əməkdaşda pozitiv çıxması barədə yalan məlumatlar yayılıb.***

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bəzi kütləvi informasiya vasitələri tərəfindən süni ajiotaj yaratmaq məqsədilə ictimaiyyətdə yanlış fikrin formalaşdırılmasına xidmət edən həmin məlumatlar həqiqəti əks etdirmədiyindən təkzib olunur.

Baş Prokurorluq bildirir ki, koronavirusla mübarizə ilə bağlı həyata keçirilən profilaktiki tədbirlər çərçivəsində prokurorluq əməkdaşları testlərə cəlb edilib. Onlardan yalnız birində koronavirus infeksiyasına yoluxma halı qeydə alınıb. Həmin əməkdaşın hazırda sosial izolyasiya rejimində müalicəsi həyata keçirilir.

Aparılmış araşdırmalarla Yusif Səməndərovun "kəskin ürək və tənəffüs çatışmazlığı" diaqnozu ilə 1 saylı Kliniki Tibbi Mərkəzə daxil olması və həmin xəstəlikdən mayın 31-də vəfat etməsi, eyni zamanda, onun koronavirus test nəticəsinin neqativ çıxması müəyyənləşdirilib. Azərbaycan Respublikasının Baş Prokurorluğu kütləvi informasiya vasitələrinə bir daha xəbərdarlıq edir ki, bu qəbildən olan yalan informasiyaların yayılmasını həyata keçirən KİV-lər barəsində ən ciddi tədbirlər görüləcək.

# Əgər cəriməni ödəməkdən imtina etsəniz, bunu bilməlisiniz!



"Əgər şəxs cəriməni ödəməkdən imtina edirsə, o məhkəmədə bunu mübahisələndirməlidir. Yalnız bundan sonra məsələ məhkəmənin qərarı ilə tənzimlənə bilər". Bu sözləri SİA-ya açıqlamasında Bakı Dövlət Universitetinin Hüquq üzrə elmlər doktoru, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, "Sosial Hüquqların Araşdırılması" İctimai Birliyinin sədri Mayis Əliyev maskalardan istifadə etməyə görə İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliyə əsasən, maskadan istifadə etmədiyi halda cəriməni ödəməkdən imtina edən şəxslərin nə ilə üzləşəcəyindən danışarkən deyib.

Onun sözlərinə görə, əgər qərar çıxardılıbsa, inzibati qaydada protokol tərtib edilibsə, cərimənin ödənilməsi artıq icraya bağlı olan məsələdir: "Məhkəmə yaxud qanunu icra edən qurumlar var. Qərarların icraçısı göndəriləcək həmin qurumlara və artıq təminatı onlar həyata keçirəcək. Əgər şəxs cəriməni ödəməkdən imtina edirsə, o məhkəmədə bunu mübahisələndirməlidir. Yalnız bundan sonra məsələ məhkəmənin qərarı ilə tənzimlənə bilər. Başqa bir hal yoxdur. Əgər şəxs barəsində inzibati protokol tərtib edilibsə və o karantin rejiminin qaydalarını pozubsa, bunu yalnız məhkəmə qaydası ilə mübahisələndirməlidir".

Hüquqşünas vurğulayıb ki, İnzibati Xətalar Məcəlləsinə görə müəyyən olunmuş yerlərdə tibbi maskalardan istifadə etmədikdə, əgər onlar barəsində inzibati qaydada protokol tərtib edilərsə, onlar törətmiş olduğu inzibati xətaya görə cavab verməlidirlər: "QHT rəhbəri kimi biz, liderlər olaraq bu qaydalara riayət olunmasını təbliğ edirik. Son dövrlər yoluxanların sayı artıb və bu dinamikanın qarşısını almaqdan ötrü ən yaxşı məsələlərdən biri Ümumdünya Səhiyyə Təşkilatının tövsiyyələrinə riayət etməli və sosial izolyasiya, gigiyenik qaydalara riayət etmək, sosial məsəfani saxlamaq və fərdi mühafizə vasitələrindən istifadə etməkdir".

Qeyd edək ki, Milli Məclisin dünən keçirilən plenar iclasında İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər müzakirə edilib. Məcəlləyə edilən dəyişikliyə əsasən, karantin rejimləri dövründə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı tələblərin pozulmasına görə cərimələr müəyyənləşib. Məcəlləyə dəyişiklik layihəsi I oxunuşda qəbul edilib.

# "Azərbaycanda uşaq hüquqlarının qorunması yüksək səviyyədə həyata keçirilir"



"1950-ci il iyun ayının 1-də Qadınların Beynəlxalq Konfransında uşaqların hüquqlarının təmin edilməsi məqsədilə bu tarix bütün dünyada Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi elan edilib. Azərbaycanda da hər il bu gün qeyd olunur. Bundan əlavə, BMT tərəfindən 1989-cu ildə Uşaq Hüquqları haqqında Konvensiya qəbul edilib.

Azərbaycanda uşaqların sağlam, firavan yaşaması, onların hüquqlarının yüksək səviyyədə qorunmasına xidmət edən dövlət siyasətinin əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub: Ölkəmizdə uşaqların sağlam,firavan yaşamasına, onarın hüquqlarının yüksək səviyyədə qorunmasını təmin edən dövlət siyasətinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur."

Bu barədə Milli Məclisin deputatı Rauf Əliyev bildirib. O qeyd edib ki, Ulu öndər Heydər Əliyev 1993-cü ildə respublikamızda ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrdə olduğu kimi, uşaq hüquqlarının qorunması, onların sosial müdafiəsinin gücləndirilməsi, hərtərəfli qayğı ilə əhatə olunması istiqamətində genişmiqyaslı işlər görülməyə başlandı. Bu dövrdən etibarən uşaqların sağlamlığının qorunması, müasir tələblərə cavab verən şəraitdə təhsil almaları istiqamətində mühüm tədbirlər həyata keçirildi. Eyni zamanda uşaq hüquqlarının müdafiəsi ilə bağlı qanunvercilik bazası formalaşdı, Azərbaycan Respublikası Milli Məclisində mühüm qanunvericilik aktları qəbul olundu. Bu mənada "Uşaq Hüquqları haqqında" , "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" , "Yetginlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanunlarının qəbul edilməsini və bu qanunların təkmilləşdirilməsi istiqamətində aparılan işləri xüsusi ilə qeyd etmək lazımdır.

Bu gün uşaqların ən böyük hamisi olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə bu istiqamətdə mühüm addımlar atılır, böyük işlər görülür:

Mehriban xanım Əliyevanın bilavasitə rəhbərliyi altında həyata keçirilən çoxsaylı layihələr və proqramlar uşaqların həyatında mühüm rol oynayıb. Uşaqların sağlam və yüksək təhsilli böyümələri, gələcəkdə savadlı vətəndaş kimi formalaşmalarına diqqət yetirmək, onların qayğı ilə əhatə olunması Heydər Əliyev Fondun fəaliyyət istiqamətlərindən biridir. Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi illər ərzində uşaqlar üçün çoxsaylı səhiyyə obyektləri, təhsil ocaqları, uşaq bağçaları, bədi-yaradıcılıq mərkəzləri, idman və istitahət komplekslərinin tikilməsi istiqamətində çoxsaylı layihələr həyata keçirilib, müxtəlif əlamətdar günlərdə və bayramlarda Mehriban xanım Əliyevanın təşəbbüsü və bilavasitə iştirakı ilə uşaqlar üçün mərasimlər, şənlik tədbirləri keçirilir. "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Diabetli uşaqlara ən yüksək dəstək", "Talassemiyasız həyat naminə" və bu kimi layihələr istət təhsil, istərsə də səhiyyə sahəsində Mehriban xanım Əliyevanın uşaqlarla bağlı fəaliyyətində əsas istiqamətlərdəndir.

Bu gün ölkəmizdə uşaq hüquqlarının müdafiəsi ilə bağlı müxtəlif tədbirlər həyata keçirilir: Azərbaycan dövləti uşaqlar üçün bütün sahələrdə geniş imkanlar yaradıb. Uşaqlar bu imkanlardan səmərəli istifadə etməli, bilik və bacarıqlarını artırmalı, tariximizi, mədəniyyətimizi, milli adət və ənənələrimizi yaxşı öyrənməlidirlər. Uşaqların sağlam mühitdə tərbiyə olunması üçün zəruri şəraitin yaradılması, valideyn himayəsindən məhrum olan onların dövlət qayğısı ilə təmin edilməsi, zorakılıq hallarının qarşısının alınması kimi vacib məsələlər daim diqqət mərkəzindədir. Azərbaycanda uşaqların xoşbəxt, firavan yaşaması üçün onlara yaradılmış şərait, göstərilən dövlət qayğısı yüksək səviyyədədir. Uşaqların hüquqlarının qorunması, rifahının yüksədilməsi, sosial müdafiəsinin gücləndirilməsi dövət siyasətinin başlıca istiqamətlərindən biridir. Ümumiyyətlə ölkəmizdə uşaqların hüquqları ən ali səviyyədə Konstitusiya qanunları ilə qorunur. Azərbaycan dövləti uşaq hüquqlarının qorunmasının və təhlükəsizliyinin qarantıdır.

# Əmlak bazarında vəziyyət: Qiymətlər ucuzlaşıb?



"Rayon və şəhərlər arasındakı əlaqələrin məhdudlaşması, ali təhsil müəssisələrinin distand təhsil sisteminə keçməsi nəticə etibarilə kirayə mənzillərə də tələbin azalmasına gətirib çıxardı". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü olan deputatı Vüqar Bayramov pandemiyanın əmlak sektorunda yaratdığı durğunluqdan və əmlak bazarındakı qiymətlərdən danışarkən deyib.

Onun sözlərinə görə, pandemiyanın ən çox təsir etdiyi sektorlardan biri də, məhz, əmlak bazarıdır və nəzərə alsaq ki, həm qlobal, həm də milli səviyyədə pandemiya əmlak bazarına ciddi təsir göstərib: "Əmlak bazarında aktivliyin azalması müşahidə olunur. Həm daşınmaz əmlakın satışında, həm də kirayə bazarında biz aktivliyin azalmasını müşahidə etmişik. Bu da təbii ki, pandemiyanın təsirləri ilə bağlıdır. Pandemiya dövründə insanlar əmlak bazarına sərmayə qoyuluşunda böyük marağa sahib olmadılar. Digər tərəfdən də xüsusilə rayon və şəhərlər arasındakı əlaqənin məhdudlaşması, ali təhsil müəssisələrinin distand təhsil sisteminə keçməsi nəticə etibarilə kirayə mənzillərə də tələbin azalmasına gətirib çıxardı. Sözsüz ki, post-pandemiya dövründə yerli daşınmaz əmlak bazarında biz aktivliyin artacağını proqnozlaşdırırıq. Xüsusilə də, əgər sentyabr ayından etibarən post-pandemiyanın təsirləri minimumlaşarsa, yeni təhsil ilində onlayn təhsildən oflayn təhsil sisteminə keçid bərpa olunarsa, bu da mənzil bazarında tələbin artmasına gətirib çıxaracaq".

Millət vəkili vurğulayıb ki, bütün bunlara baxmayaraq daşınmaz əmlak bazarında tələbin azalması müşahidə olunsa da, amma, hələlik qiymətlərdə hiss edilən dərəcədə azalmalar müşahidə olunmur: "Çünki təklif də əslində hələlik stabildir. Nəticə etibarilə bu da qiymətlərdə kəskin azalmalarla müşahidə edilmir. Amma yenidən, pandemiyadan sonra, post-pandemiya dövründə əmlak bazarında qiymətlərin stabilləşməsi müşahidə edilə bilər".

Vüqar Bayramov əlavə edib ki, əmlak bazarı iqtisadiyyat üçün vacib sektorlardan biridir, çünki, bu sektor digər fəaliyyət sahələrinə də birbaşa təsir göstərir: "Bu eyni zamanda inşaat sektoruna da təsir göstərir. Ona görə də təbii ki, post-pandemiya dövründə xüsusilə də, nəzərə alsaq ki, ipoteka kreditlərinə ayrılan vəsaitlərin həcmində də artımlar olacaq, bu dövrdə iqtisadi paketin əsas hədəflərindən biri də əmlak bazarıdır, bütövlükdə isə inşaat sektorunda aktivliyin artırılmasına nail olmaqdan ibarət olacaq".

***Nigar Məmmədova***

# 600 minə qədər uşaq sosial təminat sistemi ilə əhatə olunub




Prezident İlham Əliyevin uğurlu sosial siyasəti ölkəmizdə uşaqlara dövlət qayğısının ildən ilə artmasına, eyni zamanda, müvafiq kateqoriyalardan olan uşaqların sosial təminatının mütəmadi olaraq gücləndirilməsinə şərait yaradıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən SİA-ya verilən məlumata görə, bu gün ölkəmizdə mövcud olan sosial təminat növlərinin bir hissəsi (10-dan çoxu) uşaqlarla bağlıdır.

Belə ki, sağlamlıq imkanları məhdud uşaqlar, şəhid ailələrinin və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərin, Çernobıl AES qəzası ilə əlaqədar I və II dərəcə əlilliyi olan olan, yaxud vəfat etmiş valideynlərin, beşdən çox uşağı olan qadınların, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları aylıq sosial müavinətlə təmin olunur. Hazırda 83 min ailə üzrə 350 mindən çox ailə üzvü ünvanlı dövlət sosial yardımı alır ki, onlardan 185 minə yaxını uşaqlardır. Həmin ailələrdəki 1 yaşadək uşaqlara aylıq müavinət də verilir.

Eləcə də valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına aylıq sosial müavinət ödənilir. Yeni doğulan uşaqlara görə birdəfəlik müavinət, həmçinin Çernobıl qəzası nəticələrinin aradan qaldırılması iştirakçılarının dispanser qeydiyyatında olan uşaqlarına ildə bir dəfə birdəfəlik müavinət verilir. Ailə başçısını itirmiş ailələrə buna görə aylıq sosial müavinət və ya əmək pensiyası ödənilir ki, həmin ailələrin üzvlərinin onların 95 faizdən çoxunu uşaqlar təşkil edir. Bu uşaqlardan sağlamlıq imkanları məhdud olanlara 2020-ci ilin əvvəlindən ailə başçısını itirməyə görə müavinəti və ya ailə başçısını itirməyə görə pensiyanı sağlamlıq imkanları məhdudluğa görə müavinətlə birgə ala bilmək hüququ da verilib. Eyni zamanda sığortaolunanlara da üç yaşınadək uşaqlara qulluğa görə müavinət ödənilir.

Ümumilikdə sosial təminat növləri üzrə ödəniş edilənlərin 600 minə qədərini uşaqlar təşkil edir.

2019-cu ildə dövlət başçısının Fərmanları ilə bu ödənişlər ciddi şəkildə artırılıb. O cümlədən, sağlamlıq imkanları məhdud uşaqlar üçün müavinətin 82 manatdan 150 manata çatdırılmaqla, onlara qulluq edənlər üçün Prezidentin aylıq təqaüdü (50 manat) təsis edilib. Beşdən çox uşağı olan qadınların hər uşağına görə müavinət 33 manatdan 55 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları üçün hər uşağa görə müavinət 68 manatdan 100 manata, qəyyumlar üçün müavinət hər uşağa görə 61 manatdan 100 manata, ailə başçısını itirməyə görə müavinət hər ailə üzvü üçün 68 manatdan 80 manata, yeni doğulan uşaqlara görə birdəfəlik müavinət 109 manatdan 200 manata çatdırılıb.

Sağlamlıq imkanları məhdud uşaqlarla bağlı reabilitasiya və sosial xidmətlər sistemi də təkmilləşdirilir və genişləndirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Uşaq Bərpa Mərkəzi müasir tələblərə uyğun qurulub, hazırda isə Qəbələ və Şəmkir rayonlarında da uşaq reabilitasiya müəssisələri tikilir. Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi ilə Bakıda Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsi yaradılıb, Heydər Əliyev Fondunun müvafiq proqramı çərçivəsində nazirliyin Sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisələrində nümunəvi yaşayış və reabilitasiya şəraiti yaradılıb. Son illərdə Baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar üçün Sosial Sığınacaq və Reabilitasiya Müəssisəsi istifadəyə verilib. Bununla yanaşı, nazirliyin sosial sifarişləri ilə icra olunan layihələr əsasında minlərlə uşaq reabilitasiya yönümlü sosial xidmətlərlə təmin edilir.

# Prezident İlham Əliyev uşaqların sağlam və firavan böyüməsini, onların rifahının yüksəldilməsini dövlət siyasətinin başlıca vəzifələrindən biri kimi müəyyən edib

*Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynovanın yap.org.az-a müsahibəsi*

***- Hicran xanım, bildiyimiz kimi, 1 iyun tarixi hər il dünyada Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi qeyd olunur. Azərbaycanda uşaq hüquqlarının müdafiəsi haqqında nə deyə bilərsiniz?***

- Əvvəlcə, 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətlə bütün uşaqlarımızı təbrik edirəm. Uşaqlar Azərbaycanda əhalinin təxminən 30 faizini təşkil edir. Azərbaycanda uşaq problemləri daima diqqət mərkəzindədir. Ulu Öndər Heydər Əliyev uşaqlara dövlət səviyyəsində qayğını həmişə diqqətdə saxlayırdı. Ölkəmizdə indi də uşaqlara qayğı ildən-ilə artır. Cənab Prezident İlham Əliyev uşaqların sağlam və firavan böyüməsini, onların rifahının yüksəldilməsini dövlət siyasətinin başlıca vəzifələrindən biri kimi müəyyən edib. Prezident İlham Əliyevin Sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan etməsi bu sahəyə diqqətdən xəbər verir. Bütün bunlar həm də onu göstərir ki, Azərbaycan dövləti uşaqların sabahının təminatı üçün böyük tədbirlər görür.

Bu, həm də Heydər Əliyev Fondunun fəaliyyətinin əsas prioritetlərindən biridir. Fondun prezidenti, Azərbaycanın Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva nəcib missiyası ilə bütün Azərbaycan uşaqlarının ən böyük dostu və ən böyük himayədarıdır. Heydər Əliyev Fondunun həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Diabetli uşaqlara ən yüksək qayğı", "Talasemiyasız həyat naminə", "Kor və zəif görən uşaqların İKT-yə çıxışının təmin edilməsi" kimi layihələrin reallaşdırılması, xeyriyyəçilik tədbirləri, cərrahi əməliyyatları, peyvəndəşdirmə aksiyaları əsl şəfqət və mərhəmət, xeyirxahlıq nümunəsinə döndü. Xüsusilə də, "Uşaqlar Azərbaycanın sabahıdır, gəlin onların problemlərinə biganə qalmayaq" devizini irəli sürən Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva uşaqların hərtərəfli inkişafı, keyfiyyətli təhsil, yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin olunması istiqamətində önəmli layihələr həyata keçirir.

Ümumiyyətlə, hökumət daim uşaq və gənclər üçün yaradılan imkanları genişləndirir. Bu imkanların reallaşması üçün müasir tipli məktəblər, tibb ocaqları, idman kompleksləri tikilir, təmir edilir. Və əlbəttə ki, balalarımız da bu şəraitdən maksimum istifadə etməklə bilik və bacarıqlarını artırmalıdırlar. Çünki ancaq, müasir dövrün tələb etdiyi peşələri düzgün seçməklə, elm, texnologiya, idman, incəsənət və digər sahələrdə uğurlar qazanmaqla, Azərbaycanımızın gələcəkdə daha da güclü olmasını təmin etmək mümkündür.

Uşaq problemləri ilə məşğul



olan və dövlət siyasətini bilavasitə tənzimləyən Dövlət Komitəsinin yaradılması da uşaq probleminin həllini dövlətin əsas prioritetlərindən biri olduğunu sübut edir. Eyni zamanda, parlamentdə də Ailə, qadın və uşaq məsələləri komitəsinin olması dövlətin bu sahəyə göstərdiyi diqqət və qayğısının bariz nümunəsidir.

***- Ölkəmizdə uşaq hüquqlarının qorunması ilə bağlı qanunvericilik bazası hansı səviyyədədir?***

- Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikası uşaq hüquqlarının qorunması üzrə demək olar ki, bütün mühüm beynəlxalq sənədlərə - Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqlarına dair Konvensiyaya, "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasına qoşulmuşdur. Uşaq hüquqları ilə bağlı yaranan münasibətləri tənzimləmək və uşaqların hüqularının müdafiəsini təmin etmək məqsədilə "Uşaq hüquqları" haqqında Qanun, "Uşaqların zərərli informasiyadan qorunması" haqqında Qanun və digər qanunvericilik aktları qəbul edilmişdir.

Ümumiyyətlə, müvafiq sahələrdə görülmüş işlər sırasında ilk olaraq qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi çox vacibdir. Həmin qanunların qəbul edilməsi yeni düşüncə tərzinin formalaşmasına və müəyyən stereotiplərin aradan qaldırılmasına təkan vermişdir. Nikah yaşı 17-dən 18-ə qaldırılmış, erkən nikahların qarşısının alınması məqsədi ilə qanunvericilikdə valideyn məsuliyyəti müəyyənləşdirilmişdir. "Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə 2018-2020-ci illər üzrə Milli Fəaliyyət Planı", "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə", "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair" Dövlət Proqramları, eyni zamanda, tərəflərin nikahdan əvvəl məcburi tibbi müayinədən keçməsi ilə bağlı Ailə Məcəlləsinə edilən dəyişiklik isə həm ailələrimizin, həm də gələcək nəsillərin sağlamlığına xidmət edir. Uşaqların təhsildən yayınması, əməyə cəlb edilməsi və onların məcburi qaldığı digər sosial-psixoloji problemlər valideyn məsuliyyətinin artırılmasını zəruri edir. Bütün bu və digər məsələlər nəzərə alınaraq, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Qanunlar qəbul edilmişdir.

Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və alternativ cəza tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə 2017-ci ildə ölkə başçısının Sərəncamı imzalanmışdır. Bu sənəd, eyni zamanda, yuvenal ədliyyə sisteminin formalaşmasına da imkan yarada bilər.

***- Bu, bizə nə verəcək?***

- İlk növbədə qanuna zidd hərəkət etmiş uşağa cinayətkar damğasının vurulmasının qarşısını alacaq. Hər kəs səhv və cinayət tərkibli hərəkət edə bilər. Biz onu özümüzdən uzaqlaşdırsaq, o daha da aqressivləşər, qatı cinayətkara çevrilə bilər. Uşaq məsələləri ilə əlaqədar dövlət qurumları arasında koordinasiya və nəzarət sisteminin təkmilləşdirilməsi çox vacibdir.

Məlumat üçün qeyd edim ki, 2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası" təsdiq edilmişdir. Dövlət müəssisələrində uşaqların qidalanma, nəzarət, təhlükəsizlik, zorakılığa məruz qalma və digər məsələlərlə bağlı monitorinqi aparılmışdır. Monitorinqin nəticəsində hazırlanmış tövsiyələr əsasında təlim-tərbiyə müəssisələrində şərait standartlara uyğunlaşdırılmış, mütəxəssislər üçün yeni təlimlər keçirilmişdir. Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı yaradılmışdır. Bu uşaq problemlərinin dəqiq statistikasını müəyyən etməklə həmin sahədə daha effektiv qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə səbəb olacaq. Eyni zamanda, erkən nikah hallarının və uşaq əməyinin qarşısının alınması üçün maarifləndirmənin gücləndirilməsi, valideyin himayəsindən məhrum uşaqların internat və uşaq evlərini tərk etdikdən sonra onların məşğulluğunun təmin edilməsi, eləcə də, müxtəlif peşələrin öyrədilməsi, məişət zorakılığının və insan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyası istiqamətində tədbirlər keçirilir.

***- Bəs uşaqlarının mövcud problemləri nədən ibarətdir?***

- Uşaq problemlərinin həlli ilə bağlı görülən işlərlə yanaşı hazırda uşaqların mövcud problemləri də vardır. Bu gün bizi düşündürən əsas məsələlərdən biri valideyn məsuliyyətidir. Müasir dövrdə informasiya çoxluğu və qlobal proseslər valideyn-övlad münasibətlərinə yeni tendensiyalar gətirir. Bu gün ən mühüm məsələrdən biri valideynlərin övladları ilə ünsiyyətində, xüsusilə də uşağın keçid yaş dövrlərində bir sıra çətinliklərin yaranmasıdır ki, bu da ağır fəsadlara səbəb olur. Eyni zamanda, əlilliyi olan uşaqlarla da münasibətin qurulmasında valideynlər problemlərlə üzləşir.

XX əsrin sonlarında iqtisadi keçid dövrünün ciddi problemləri, Ermənistanın Azərbaycana təcavüzü və torpaqlarımızın 20 faizini zəbt etməsi bir sıra xoşagəlməz, mənfi sosial hadisələrin baş verməsinə gətirib çıxarmışdır. Ölkədə bir milyon Azərbaycan vətəndaşı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür, onların üç yüz mindən çoxu uşaqlardır. Bu da təbii ki, uşaq problemlərini və onların hüquqlarının kobud surətdə pozulmasını yaradan amildir. Onu da qeyd edim ki, 1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilərin Azərbaycanda uşaqları qətlə yetirilməsi faktları qeydə alınmaqda davam edir. Ötən dövr ərzində 34 uşaq erməni terrorunun qurbanı olub. Onlardan on dördü həlak olmuş, iyirmisi isə yaralanmışdır. Onlardan ən balacası bir yaş səkkiz aylıq Zəhra Quliyevadır. Ermənistan "Uşaq hüquqları haqqında" Konvensiyanı ratifikasiya edən dövlətdir, ancaq təəssüflər olsun ki, Konvensiya ilə öz üzərində götürdüyü öhdəlikləri kobud şəkildə pozur. Uşaqlar ailənin davamçısı olduğu kimi, həm də dövlətin gələcəyidir. Bu baxımdan, bütün beynəlxalq təşkilatlara səslənərək bildirmək istəyirəm ki, belə bir beynəlxalq gündə qaçqın, köçkün, terror və müharibə qurbanları olan uşaqları unutmasınlar!

Dünyanı, xüsusilə ən güclü və çoxəsrlik dövlətçilik ənənəsi olan dövlətlərin COVİD 19 virusu ilə mübarizə apardığı, iqtisadi böhranın bürüdüyü bir vaxtda, hətta dövlətlərin ən vacib sosial xərcləri ödəmək qabiliyyətini itirdiyi halda, respublikamız cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün hallarda vətəndaşlarının qayğısını çəkmək seçimi edib. Ölkə başçısı çıxışlarından birində demişdir: "Azərbaycanın güclü sosial siyasəti güclü iqtisadi bazaya əsaslanır. Biz iqtisadi sahədə əldə edilmiş nailiyyətləri insan kapitalına çeviririk". Cənab Prezidentin bu fikirləri hesab edirəm ki, bizim hər birimiz üçün əsas məqsədi müəyyən edir. Əsas məqsəd Azərbaycan vətəndaşının layiqli həyat səviyyəsini, sağlamlığını təmin etməkdir. Cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi "Gələcək nəsil, ilk növbədə, vətənpərvər olmalıdır, sağlam olmalı, milli ruhda tərbiyə almalıdır, öz doğma Vətəninə bağlı olmalıdır, bizim qədim ənənələrə sadiq olmalıdır və bilikli, savadlı olmalıdır. Belə olan halda ölkəmizin gələcəyi də parlaq olacaqdır".



## Azərbaycanda Qurban bayramı nə vaxt keçiriləcək?

***Azərbaycanda Qurban bayramının vaxtı açıqlanıb. SİA xəbər verir ki, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev açıqlamasında Zilhiccə ayının 10-u bu il Qurban bayramıdır.***

"Qurban bayramı bu il iyulun 31-i və avqustun 1-nə təsadüf edəcək. Əslində, İslam ölkələrində Qurban bayramı 3 gün qeyd edilir, yəni Zilhiccə ayının 10-u, 11-i və 12-də. Bizdə isə həm Ramazan, həm də Qurban bayramı dövlət səviyyəsində 2 gün bayram edilir" - deyə, Fuad Nurullayev bildirib.

## "La Vanguardia": Azərbaycan işğal olunmuş ərazilərinin azad edilməsi üçün güc işlətməyə hazırdır

***İspaniyanın populyar "La Vanguardia" qəzeti Azərbaycanın Müdafiə naziri Zakir Həsənovun işğal olunmuş ərazilərin azad edilməsinə dair bəyanatı ilə bağlı məqalə dərc edib.***



LA VANGUARDIA

Política

Directo

La última hora de la crisis del coronavirus y las fases de desescalada

AZERBAIYÁN ARMENIA

**Azerbaiyán amenaza a Armenia con usar la fuerza en Nagorno Karabaj**

0

REDACCIÓN
31/05/2020 17:47

Bakú, 31 may (EFE).- El Ministerio de Defensa de Armenia declaró hoy en un comunicado que está dispuesto a utilizar la fuerza para recuperar los territorios ocupados por Ereván durante la guerra de 1991-1994.

Según afirmó la entidad, citada por EurAzia Daily, con Armenia solo es posible hablar con "el lenguaje de la fuerza" y la próxima contienda entre ambos países significará "la derrota total del enemigo".

AZƏRTAC xəbər verir ki, məqalədə nazirin bəyanatına əsasən, Ermənistan silahlı qüvvələri tərəfindən 1991-1994-cü illər müharibəsi dövründə işğal edilmiş ərazilərin geri qaytarılması üçün Azərbaycanın Müdafiə Nazirliyinin güc tətbiq etməyə hazır olduğu qeyd edilir. Qəzetdə Z.Həsənovun bu sözləri sitat gətirilir: "Ermənistanla yalnız güc dili ilə danışmaq mümkündür və bu iki ölkə arasında növbəti qarşıdurma düşmənin tamamilə darmadağın edilməsi ilə nəticələnəcək".

"Bizim görəcəyimiz tədbirlər 2015, 2016 və 2018-ci illərlə müqayisədə daha sarsıdıcı və dağıdıcı olacaq", - deyə regionda son gərgin vəziyyətə münasibət bildirən Azərbaycan Müdafiə Nazirliyi bəyan edib.

Məqalədə Azərbaycanda ötən həftə keçirilmiş genişmiqyaslı hərbi təlimlərin Müdafiə naziri tərəfindən yüksək qiymətləndirildiyi, Ermənistan tərəfindən isə mühakimə edildiyi qeyd olunur.

"La Vanguardia" diqqəti 1980-ci illərin sonlarında Ermənistan və Azərbaycan arasında başlanmış Dağlıq Qarabağ münaqişəsi nəticəsində Ermənistan ordusu tərəfindən Dağlıq Qarabağın, həmçinin "təhlükəsizlik zolağı" adlandırılan geniş ərazinin işğal edilməsinə yönəldib. Məqalədə, həmçinin işğal olunmuş ərazilərin BMT-nin qətnamələrinə müvafiq qaydada azad edilməsini Azərbaycanın münaqişənin həllində əsas şərt kimi irəli sürməsi vurğulanıb.

# Sosial şəbəkələrdə bir qrup "virtual terminatorlar" formalaşıb

*Əli Kərimli, Sevinc Osmanqızı, Cəmil Həsənli, Qənimət Zahid, Gültəkin Hacıbəyli, Orduxan Temirxan, Məhəmməd Mirzəli, Vidadi İsgəndərli, Qabil Məmmədov və başqa manqurtlar artıq məsuliyyətə cəlb edilməlidirlər*

***Bu gün sosial şəbəkələrin həyatımızın ayrılmaz hissəsinə çevrilməsi danılmaz faktdır. Onlar artıq biznes, ailə, siyasət, cəmiyyət məsələlərinin senzura olmadan müzakirə edildiyi sərhədsiz platformaya çevrilib. Ənənəvi media - qəzet, jurnal, televiziya və radio operativlik baxımından sosial şəbəkələrdən xeyli geri qalır. Sosial şəbəkələrin rolunun sürətlə artması informasiya təhlükəsizliyi kontekstindən çox ciddi problemlər meydana çıxarır. Çünki onlar maraqlı siyasi qrupların əlində öz məqsədlərini reallaşdırmaq üçün əlverişli alətə çevrilib.***

Ona görə də sosial şəbəkələr müasir dövrdə cəmiyyətlər və dövlətlər üçün diqqətdən kənarda saxlanması mümkün olmayan problem xarakteri alıb. Elə bu səbəbdəndir ki, dünyada bir çox dövlətlər Facebook, Tvitter və başqa sosial şəbəkə resurslarına qarşı təsirli tədbirlər görərək fəaliyyətini ya məhdudlaşdırıb, ya da tamamilə dayandırıb. Çində, Rusiyada, İranda, Türkiyədə, Türkmənistanda, Özbəkistanda, Tacikistanda, Misirdə, Vyetnamda, Səudiyyə Ərəbistanında, Pakistanda və başqa ölkələrdə sosial şəbəkələrin müxtəlif seqmentləri qadağan olunub. Bütün bunlar isə sosial şəbəkələrin son zamanlar ünsiyyət qurma mahiyyətindən çox mənəvi və siyasi terrorla məşğul olması ilə əlaqədardır. Bu sıraya ABŞ artıq qoşulur.

Əslində, bununla sosial şəbəkələrin dövlətlər üçün ağır nəticələr verməsinin, cəmiyyətlərin sosial-mənəvi dayaqlarını məhv etməsinin qarşısı alınır. Bu gün artıq bütün dünya sosial şəbəkələrdən hər bir evə, ailəyə, cəmiyyətə, dövlətə daxil olan mənəvi terroru görür. Sosial şəbəkələr insanlar üçün mənəvi, bəzənsə hətta fiziki məhvetmə silahı kimi dərk edilməkdədir. İnsan ləyaqətinin tapdanmasından onun intiharına qədər aparan yolun başlanğıcı da ola bilir sosial şəbəkələr. Sosial şəbəkələr artıq elə bir şər, böhtan, təxribat meydanına çevrilib ki, burada qəhrəmanlar aşağılanır, insanlar arasında heç



bir nüfuzu olmayanlar isə "qəhrəman"laşdırılır. Bütün bu səbəblərə görə, hər bir sivil cəmiyyətin mədəni-intellektul elitası sosial şəbəkələrin mənəvi terroruna, ictimai-siyasi təxribatlarına qarşı çıxmalı, bu prosesin inkişafının qarşısını almağa töhfəsini verməlidir. Çünki nəticədə gələcəyimiz, milli-mənəvi dəyərlərimiz mühafizə olunur, qorunur. Bu, o dəyərlərdir ki, xalqımızı əsrlər boyunca assimilyasiyadan qoruyub, tarixi-milli yaddaşımızı yaşadıb və müstəqil dövlət sahibi olmağımıza səbəb olub.

Bu gün Azərbaycanda əhalinin təqribən 60-70 faizi sosial şəbəkə istifadəçisidir. Onlardan 2,8 milyonu istifadəçi isə aktiv Facebook hesablarına malikdir. Azərbaycan hakimiyyəti qanunun aliliyi, insanların hüquq və azadlıqları prizmasından çıxış edərək, heç bir zaman dünyanın bir çox ölkələrində olduğu kimi, sosial şəbəkələrin bağlanmasına qərar verməyib. Əksinə, dövlət vətəndaşların, ən ucqar kəndlərdə yaşayanların belə internetə çıxışını təmin edib. Lakin təəssüf ki, həm ölkə daxilində, həm də sərhədlərimizdən kənarda bəzi qüvvələr sosial şəbəkələri anti-xalq, anti-dövlət platformasına çeviriblər. Kənardan baxanda çox sadə bir prosesə oxşayan bu fəaliyyət, əslində, böyük bəlaların səbəbkarı ola bilər. Azərbaycan dövlətinə, xalqına və siyasi hakimiyyətinə qarşı düşünülmüş, xüsusi metod və metodologiyası işlənərək həyata keçirilməkdə olan bu proses özünü təhqir və söyüşlə müşayiət olunan mənəvi terror kimi isbatlamaqdadır.

Bu metodologiya "bir dövlətin əsaslarını dağıtmaq, dövlət sahibi olan bir xalqı xaos içərisində buraxmaq üçün onun gənclərinin beynini yumalı, milli-tarixi köklərindən ayırmalı, ənənəvi dəyərlərdən uzaqlaşdırmalı, düşmənləri kimi düşünmək, yemək, içmək, gəzmək təlqin edilməli və sonda asanlıqla dövləti yıxmalı" fəlsəfəsinə söykənir. Hər gün sosial şəbəkələrdə ailə xəyanətləri, intiharlar, insan ləyaqətinin alçaldılması və s. məsələlərlə bağlı çoxsaylı materiallar, video görüntülər yayılır, yalan informasiyalar paylaşılır. Bəli, onlar anti-Azərbaycan planlarını reallaşdırmaq üçün beyni yuyulmuş, tarixi-milli köklərindən, mənəvi dəyərlərindən qopmuş, bir qrup gənc, insanlara qarşı təhqir və söyüşlə mənəvi terror törətməkdən zövq alan bir qrup manqurt formalaşdırıblar. Əli Kərimli, Sevinc Osmanqızı, Cəmil Həsənli, Qənimət Zahid, Gültəkin Hacıbəyli, Orduxan Temirxan, Məhəmməd Mirzəli, Vidadi İsgəndərli, Qabil Məmmədov və başqaları artıq düşmənlərimiz kimi danışır, yeyir, içir, gəzir və bu cür həyat tərzlərindən məmnunluqları ilə dünyagörüşü yenicə formalaşmaqda olan gəncləri də zəhərləməyə çalışırlar. İntellekt və kreativlik baxımından kasad olan, lakin siyasi direktivləri canla-başla yerinə yetirən bu "virtual terminatorları" sırf mənəvi terror törətməklə məşğuldurlar. Onların məsuliyyətə cəlb edilməsinin zamanıdır.

Onların vahid mərkəzdən idarə edilməsi heç kəsdə şübhə doğurmur. Çünki hər biri eyni zamanda vahid mövzu və tezis əsasında post yazır, canlı yayımlar edir. Fəaliyyətlərinin əsas qayəsini və predmetini isə yalnız təhqir, söyüş təşkil edir. Təbii ki, bu da səbəbsiz deyil. Çünki mənəvi terroru başladan, milli-mənəvi dəyərlərin əsaslarını dağıdan təhqir ictimai rəydə xaos, nizamsızlıq, sistemsizlik yaradır. Mənəvi dəyərlərimizin düşmənləri əxlaq, mədəniyyət, tərbiyə kimi dəyərləri böyük şövq və ehtirasla tapdalayırlar. Sanki söyüş və təhqiri özlərinin ifadə və özünütəsdiq vasitəsi kimi görür və bunu gənclər arasında təlqin edirlər.

Hələ ətrafda baş verənləri yetərincə anlamayan, lakin Avropadakı "təhqir maşınları"nın həyat tərzini arzu edən bəzi gənclər sanki zombiləşərək mənəvi terror prosesinin iştirakçısına çevrilirlər. Onlar anlamaq istəmirlər ki, anti-Azərbaycan mərkəzləri tərəfindən başladılan bu prosses sivil cəmiyyətimizə barbarlığı sırıyır. Bu, o barbarlıqdır ki, milli-mənəvi dəyərləri ayaqlar altına alan, manipulyasiya edilmiş və siyasət meydanına çıxmaq niyyətində olan kütlə obrazı formalaşdırır. Onların başlatdıqları təhqir kompaniyası virtual həyatda bütün mənəvi sərhədləri pozmaqla real həyatda dağıdıcılığa yol açmaqdadır. "Ərəb baharı" kimi proseslər məhz bu cür tendensiyalardan törəyib.

Doğrudur, Azərbaycandakı sosial-iqtisadi və siyasi atmosfer "Ərəb baharı"nın baş verdiyi ölkələrdəki vəziyyətdən çox-çox fərqlənir. Çünki Azərbaycanda savadlılıq yüz faiz səviyyəsindədir və ölkəmizdə intellektual cəmiyyət formalaşıb. Amma bununla belə, cəmiyyətimizin mənəvi dayaqlarının sarsıdılmasına cəhdlər göstərilir və bunun ilkin sindromları da artıq görünməkdədir. Ona görə də dövlətçiliyimizin qorunması, milli-mənəvi dəyərlərimizin mühafizəsi üçün sosial şəbəkələrədəki mənəvi terroru durdurmalı, sosial-mədəni maarifləndirmə işləri başlanmalıdır.

Yaxşı anlayıram ki, bu gün cəmiyyətimizdə virtual mənəvi terrordan doğan bir qorxu var. Bu qorxunun əsas səbəbi isə təhqirdir, söyüşdür. Mənəvi terrorun törədiciləri instinktiv olaraq onlara qarşı çıxanları, həqiqəti söyləyənləri təhqir edir, söyür, öz aləmlərində linç edirlər və bu yolla opponentlərini fikirlərindən daşındırmaq, çəkindirmək istəyirlər. Amma təhqirlərə rəğmən, bu mənəvi terror tendensiyasını dayandırmalıyıq. Bu prosesdə gənclərin də üzərinə böyük məsuliyyət düşür. Vətənpərvər, milli-tarixi köklərinə, yaddaşına, milli-mənəvi dəyərlərinə sadiq gənclər elə virtual aləmdə, sosial şəbəkələrdə "təhqir maşınları"na qarşı mübarizə aparmalı, virtual kampaniyalar, aksiyalar təşkil etməli, mənəvi terrora, təhqirə, söyüşə, insan ləyaqətinin alçaldılmasına "yox" deməlidirlər.

Sosial şəbəkələrdə müşahidə olunan "terror fırtınası"na qarşı mübarizədə qanunvericilik bazası da möhkəmləndirilməlidir. Burada sosial şəbəkə seqmentlərinin idarə olunduğu şirkətlərin toxunulmazlığının aradan qaldırılması ilə yanaşı, xarici ölkələrdəki "təhqir maşınları"nın, terrora çağırış edənlərin interpol vasitəsilə həbsinə qədər məsələlər dəqiqliklə öz həllini tapmalıdır.

Əgər cəmiyyətimizə, xalqımıza, dövlətimizə qarşı yönəlmiş mənəvi terrorun qarşısını zamanında almasaq, bu, çox təhlükəli vəziyyət yaradacaq və təhqir, söyüş, bu gün abır-həya senzurasından keçə bilməyən ifadələr adiləşərək gündəlik işlədilən sözlərə çevriləcək. Hörmət, izzət, ismət olmayan cəmiyyətlərdə mənəvi sütunlar dağıla, barbarlıq virtuallıqdan real aləmə ayaq aça bilər. Bundan sonrakı proseslərin isə hansı nəticələrlə bitə biləcəyini təxmin etmək elə də çətin deyil...

***Ramil Vəlibəyov,***
***Siyasi elmlər üzrə fəlsəfə doktoru***

## "Sosial şəbəkələr informasiya manipulyasiyası platformasına çevrilib"

"Sosial şəbəkələrin hüquqi tənzimlənməsi mexanizmi uzun müddətdir ki, aktualdır. Sosial şəbəkələr sərbəst fikir paylaşımı platforması olaraq müsbət bir hadisə olsa da, söz azadlığı standartlarını aşmaq baxımından xeyli neqativlərə də yol açır. Yalan, təhqir, böhtan xarakterli informasiyalar, başqalarının şəxsi həyatına müdaxilə, dövlət sirri olan informasiyaların maneəsiz yaylması və sair kimi hallar sosial şəbəkələr üçün xarakterik hala çevrilib". Bunu SİA-ya açıqlamasında Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli deyib.

Onun sözlərinə görə, sosial şəbəkələr informasiya manipulyasiyası platformasına çevrilib: "İndi yeni təzahürlər də ortaya çıxıb: terror təşkilatları, dövlət çevrilişi təşkilatçıları və sairlər bu platformada sərbəst davrandıqları halda, dövlət başçılarına, cəmiyyətin marağını güdən siyasətçilərə senzura tətbiq edilir və sair. ABŞ prezidenti Donald Trampın başına gələn hadisələr bu halı bir daha təsdiqləmiş oldu. Hansı ki, ayrı-ayrı ölkələr, o cümlədən Azərbaycan bu cür hallarla çoxdan qarşılaşırdı, haqsızlığa məruz qalırdı. Əslində bu cür qaydasız davranışları hamı bilirdi, amma hansısa maraqlara görə susurdular. Hesab edirdilər ki, sosial şəbəkə idarəçilərinin yaratdıqları problemlər yalnız kiçik dövlətlər üçündür. Amma Donald Trampla yaşanan hadisələr, yəni "Tvitter"in ona senzura tətbiq etməsindən sonra dünya, daha doğrusu, böyük ölkələr anlamağa başlayıblar ki, sosial şəbəkələrdə ortaya çıxan neqativlər artıq bütün dünyada təhlükəsizlik baxımından təhdidlər yaradır. Onlar anladılar ki, sosial şəbəkələr sahəsində müəyyən tənzimləmə olmalıdır. Mütləq şəkildə yeni qanunlar hazırlanmalı, həmçinin, mövcud qanunlara əlavə və dəyişikliklər edilməlidir. Artıq ABŞ prezidenti bu sahədə bir president yaratdı, sosial şəbəkələrdə müəyyən istiqamətlərdə tənzimləmə üçün sərəncam imzaladı. Hesab edirəm ki, ayrı-ayrı dövlətlər bu praktikadan istifadə edəcəklər".

## Daha bir rayonun prokuroru işdən çıxarıldı



Prokurorluq orqanlarının kadr korpusunun peşəkarlıq və mənəvi keyfiyyətlərinə görə işçilərlə komplektləşdirilməsi istiqamətində işlər davam etdirilir. Baş Prokurorluğun Mətbuat xidmətindən SİA-ya bildirilib ki, Baş prokuror Kamran Əliyevin imzaladığı müvafiq əmrlərlə Bakı şəhər prokurorunun ictimaiyyətlə əlaqələr üzrə köməkçisi Tural Aslanov və Bakı şəhər prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru Həsən Mahmudov tutduqları vəzifədən azad edilərək Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru, Baş Prokurorluğun Kadrlar idarəsinin prokuroru Elxan Novruzov isə tutduğu vəzifədən azad edilərək Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru vəzifələrinə təyin edilmişlər. Bundan başqa, Baş prokurorun imzaladığı digər əmrlə Neftçala rayon prokuroru Aydın Əliyev tutduğu vəzifədən azad olunub.

## Narkotik alverçisi tutuldu

Narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Masallı rayon sakini R.Nəsirov saxlanılıb. Daxili İşlər NazirliyindənSİA-ya verilən xəbərə görə, Masallı RPŞ əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Qızılağac kənd sakini, əvvəllər məhkum olunmuş R.Nəsirov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan heroin aşkar edilərək götürülüb. Davam etdirilən tədbirlərlə onun "Toyota" markalı avtomobilindən marixuana, metamfetamin, heroin, evindən isə əlavə olaraq 435 qrama yaxın heroin və 164 qrama yaxın metamfetamin aşkar edilərək götürülüb.



# Armenianreport: Sabah müharibə olarsa kimə ümid etməliyik?

*Ermənistan təlaş və qorxu içində çabalayır*

***"Biz kimə ümid etməliyik? Cavab kədərli və həqiqəti əks etdirir - heç kimə". SİA xəbər verir ki, bu barədə Ermənistanın armenianreport agentliyinin sətiraltı şəkildə Azərbaycanın hərbi qüdrətinin etiraf olunduğu analitik yazısında qeyd olunub. O da bildirilib ki, növbəti dəfə erməni xalqı öz tarixində müqəddəratını qoruyub-saxlamaq üçün ölüm-dirim mübarizəsinə başlamaq məcburiyyətində qalacaq.***



Əslində bu zəifliyin, dövlətə və hakimiyyətə etimadsızlığın və ümumiyyətlə, ermənilərin daim kimlərinsə dəstəyinə ehtiyaclı olduqlarının etirafı kimi də qiymətləndirilə bilər. Ona görə də sözügedən yazıda Azərbaycan tərəfi "düşmən" kimi göstərilməklə yanaşı, həm də güclü orduya malik olan ölkə olaraq qəbul olunur. Yəni ermənilər bunu istəsə də, istəməsə də, Azərbaycanın qüdrətli Silahlı Qüvvələri qarşısındakı acizliklərini dərk etmək məcburiyyətindədirlər. Əks halda, "Sabah müharibə başlarsa" başlıqlı təhlili yazı ümumiyyətlə işıqlandırılmazdı....

### "Divanda oturan hərbi strateqlər daha yaxşı olardı ki, düşməni qiymətləndirsinlər"

Azərbaycanın müdafiə naziri Zakir Həsənovun Mərkəzi qərargah məntəqəsində ordu rəhbərliyi ilə kerçirdiyi xidməti iclasındakı çıxışı da düşməni təlaşlandırıb. Bu baxımdan, ermənilər hər an Ali Baş Komandanımız, cənab İlham Əliyevin hücum əmri verməsi reallığından ciddi şəkildə narahat olublar.

Ancaq daha bir maraqlı məqam sözügedən məqalədə ermənilərin ofis divanında oturub hərbi strateqlərinin və taktiklərinin boş-boş fikirlərinə ironik yanaşmasıdır. SİTAT: "Bəzi divanda oturub hərbi strategiya və taktika barədə danışanlara skeptik yanaşma edim. Guya Həsənov (müdafiə naziri-red.) ilk dəfə deyil ki, bizi təhdid edir. Bəli, ilk dəfə deyil. Lakin daha yaxşı olardı həmin adamlar rəqibi qiymətləndirməmək yerinə, qiymətləndirməyi anlamalı, dərk etməlidirlər. Qiymətləndirməməyin fəsadları çox ağrıdıcı ola bilər".

Daha bir ilginc məqam isə Ermənistanda tüğyan edən COVİD-19 pandemiyasının verdiyi ağır fəsadlarla bağlıdır. Belə ki, sözügedən təhlildə erməni müəllif qeyd edir ki, hakimiyyət virusun təhlükəsini və dağıdıcı təsirlərini düzgün qiymətləndirməyi bacarmayıb və müharibə olarsa, Ermənistan məhv olmaq təhlükəsi ilə qarşı-qarşıya qalmalı olacaq.

### "İqtisadiyyat və səhiyyə tamamilə dağılıb... Bizim ordu güclü ola bilmədi"

"Nəticədə biz kütləvi şəkildə yoluxanların və ölənlərin şahidlərinə çevrilirik, o cümlədən iqtisadiyyat və səhiyyə də tamamilə dağılıb. Sonuncu hal müharibə təhlükəsinin yaxınlaşdığı vaxt xüsusilə vacib əhəmiyyət daşıyır", yazıda vurğulanır. SİTAT: "Bundan əlavə, təkrar edirəm ki, Bakıda "Düşmən anlamalıdır ki, bizim tərəfimizdən tətbiq ediləcək ölçülər bu dəfə 2016-cı ilin aprel hadisələrindən fərqli olacaq, vurulacaq zərbələr isə bütünlüklə siyasi, iqtisadi və hərbi süquta gətirib-çıxaracaq" bəyanatının verilməsi planlarının açıq şəkildə bəyan edilməsi ciddi təhlükədir".

Erməni müəllif Ermənistanın mövcud ağır durumunun, həmçinin aprel məğlubiyyətinin əsas baiskarları kimi Serj Sarkisyanı, Seyran Ohanyanı, Yuri Xaçaturovu göstərir və Azərbaycanın hərbi ritorikasını nədənsə onlarla əlaqələndirməyə çalışır. Lakin daha bir fakt budur ki, hətta Ermənistanın Nikol Paşinyan rejimi belə, müharibə başlayarsa, ağır zərbələr altında məğlub olmaq təhlükəsini yaşamalı olacaq.

Beləliklə, Ermənistanın sabiq baş qərargah rəisi və KTMT-nin keçmiş baş katibi Xaçaturovu ittiham edən müəllif yazır: "Təəccüblü deyil ki, Xaçaturov Aprel müharibəsi ilə bağlı parlamentdə yaradılmış müvəqqəti istintaq komissiyasının suallarını cavablandırmaq marağında deyil. Təəccüblü budur ki, ona qarşı hazırkı zamana qədər cinayət işi tətbiq olunmayıb. Lakin daha təəccüblüsü budur ki, Sarkisyan və Ohanyana qarşı hələ də məhkəmə keçirilməyib. Onların günahları bəllidir və onların nəyisə gizlətməyə də imkanları yoxdur. Bütün bunlara baxmayaraq, heç nə edilmədi. Hətta ordunun gücləndirilməsi reallığında da heç bir addım atılmadı. Böyük səs-küylər, piarlar oldu, lakin praktiki cəhətdən bizim ordu güclü ola bilmədi. Əksinə, o zəiflədi, xüsusilə Naxçıvan istiqamətində. Artıq günahların bir hissəsi də yeni hakimiyyətin ayağına yazılır. Yeni hakimiyyətin günahı isə budur ki, düşmən bütün imkanlardan istifadə edə bilir..."

### Prezident İlham Əliyevin bəyanatı erməniləri qorxuya salıb, düşməni yerindən oynadıb

Bunun səbəblərindən biri kimi, erməni müəllif Nikol Paşinyanın hakimiyyətdaxili rəqiblərinə qarşı başının qarışmasını göstərir.

Məsələn, Azərbaycan Prezidenti İlham Əliyevin qaçqınlar və məcburi köçkünlərlə görüşü zamanı "Dünyada güc faktoru birinci plana keçir" fikrini təhlil edən erməni müəllif rəsmi Bakının bu planını da dünya ölkələri tərəfindən dəstəkləndiyini və haqlı müharibə aparan tərəf kimi qəbul olunduğunu bildirir. "Dünyada praktiki olaraq nə Ermənistana, nə də "Artsaxa" dəstək hiss edilmir", deyə müəllif qorxu hisslərini gizlədə bilmir.

Həmçinin iddia olunur ki, Azərbaycan rəhbərliyi Ermənistanın belə bir çətin vəziyyətə düşməsindən ruhlanır və öz gücünü göstərmək əzmini artırır. Buna misal olaraq, Prezident İlham Əliyevin qaçqın və məcburi köçkünlər üçün istifadəyə verilmiş yaşayış kompleksinin açılışı zamanı zamanı ifadə etdiyi digər fikri önə çəkilir. SİTAT: "Bütün Azərbaycan xalqı bilməlidir ki, bu, sizin üçün (qaçqın və məcburi köçkünlər üçün - red.) müvəqqəti yaşayış yeridir. Torpaqlarımız işğaldan azad edildikdən sonra, bu cür gözəl binaların, şəhərcikləri ermənilər tərəfindən dağıdılmış şəhərlərimizdə yenidən tikəcəyik".

Məhz bu sitatı önə çəkən erməni müəllif Azərbaycanın hər an müharibəyə hazır olduğuna işarə edir.

### "Ölkə indi iqtisadi, demoqrafik tənəzzülə uğramaqla yanaşı, həm də ruh düşkünlüyünə düçar olub"

Söz yox ki, bu Azərbaycanın haqq səsidir və dövlət rəhbərliyi tərəfindən verilən bəyanatlar onları ciddi şəkildə narahat etməklə yanaşı, ermənilər beynəlxalq təşkilatların da Azərbaycanın ədalətli mövqeyinə dəstək verdiyindən təlaş keçirirlər. Bu baxımdan, "ATƏT-in Minsk qrupunu təmsil edən üzv ölkələrin həmsədrlərindən heç biri Zakir Həsənovun və İlham Əliyevin açıq şəkildə müharibəyə hazır olduqlarını əks etdirən bu sözlərini ittiham etmirlər. KTMT də susur. Bu zaman kimə ümid etməliyik? Cavab bəlli və səmimidir - heç kimə...", deyə armenianreport-un analitik yazarı qeyd edir və Paşinyan hakimiyyətini hədəfə alır. SİTAT: "Lakin fakt ondadır ki, mövcud hakimiyyətin əlində bütün "kozırlar" olub ki, vəziyyət bu qədər kritik həddə çatmasın. Bütün demokratik dünya inqilabdan sonra Ermənistanın tərəfində idi... Lakin "məxməri hakimiyyət" əldə olan bütün üstünlükləri bazara çevirdi. Hakimiyyət bununla yanaşı, Rusiya ilə münasibətləri pozdu, həmçinin vəziyyəti o həddə qədər çatdırdı ki, İran daha çox Bakının tərəfindən çıxış etməyə başlayıb. Üstəgəl, ölkə indi iqtisadi, demoqrafik tənəzzülə uğramaqla yanaşı, həm də ruh düşkünlüyünə düçar olub. Məhz qarşı tərəf də (Azərbaycan-red.) mütləq bundan istifadə edəcək".

**Rövşən RƏSULOV**

## Tiqran Urixanyan: "Hamımız Paşinyanla təmasda olmuşuq"



Ermənistan parlamentinin deputatı Tiqran Urixanyan baş nazirf Nikol Paşinyanın koronavirusa yoluxmasından sonra qanunverici qurumun spikeri Ararat Mirzoyandan parlamentin gələcək fəaliyyəti ilə bağlı maraqlanıb. O, bildirib ki, baş nazirdə koronavirus müəyyən edilməsinə baxmayaraq, o ötən həftə parlament deputatları ilə görüşüb.

"Bu, o deməkdir ki, bir neçə gün, hətta həftələr ərzində baş nazir virus daşıyıcısı olub", deyən erməni deputatı həmçinin bildirib: "Məsələn, o mənə sənəd verdi və mən məcburi şəkildə həmin sənədi götürdüm, Edmun Marukyan onunla kofe içib və sizin bir çoxunuz, hörmətli "Mənim addımım" fraksiyasının üzvləri, onunla təmasda olmusunuz. Yəni bizim çoxumuz təmasda olmuş şəxslərik, bəs bizim qurumun məsələsi nə yerdə qalacaq?" . Parlamentin spikeri Ararat Mirzoyan isə bəyan edib ki, artıq bu suala cavab verib və qeyd edib ki, mümkün olanda bir daha həmin mövzuya toxunacaq.

## İranda 3 000-ə yaxın insanda koronavirus aşkarlandı

İranda koronavirusa yoluxanların sayı yenə artıb. Bu barədə İran Səhiyyə Nazirliyinin sözçüsü Kiyanuş Cahanpur bildirib. Onun sözlərinə görə, ölkədə daha 2 929 nəfərdə koronavirus aşkarlanıb. Bununla da İranda yoluxma faktlarının sayı 154 445-ə çatıb. K.Cahanpur bildirib ki, ölkədə koronavirusdan ölənlərin sayı daha 81 nəfər artaraq 7 878 nəfərə yüksəlib. O həmçinin 2 578 pasiyentin vəziyyətinin ağır olduğunu vurğulayıb. Bundan başqa, indiyədək 121 008 nəfər sağalaraq xəstəxanadan evə buraxılıb. Xatırladaq ki, koronavirus infeksiyası ötən ilin dekabrında Çinin Uhan şəhərində yayılmağa başlayıb. Hazırda virus 213 ölkə və bölgədə qeydə alınıb.



## Jirinovski: "ABŞ-dakı etirazlar inqilabla bitəcək"



ABŞ-dakı iğtişaşlar ölkədə "inqilabi dəyişikliklərə" səbəb ola bilər. SİA RenTV-yə istinadən xəbər verir ki, bu fikri Liberal Demokrat Partiyasının lideri Vladimir Jirinovski söyləyib. Jirinovski hesab edir ki, Amerika inqilab astanasındadır. Eyni zamanda, özü də prosesin intensivliyini vurğulayır.

"Oraya solçu və radikal təşkilatların nümayəndələrini göndərmək təcili olaraq tələb olunur. Onlara ABŞ-da Angela Devisin tapılması və xalqın etirazına rəhbərlik etməsini xahiş edilir. Sonra bəlkə də bu inqilab uğur qazanacaq və qadın paltarı geyinmiş Tramp Vaşinqtondakı Rusiya səfirliyinin maşınına qaçacaq", deyə siyasətçi özünün telegram kanalında yazıb. Qeyd edək ki, etirazlar bu həftə Minnesota və ABŞ-ın bir neçə ştatında Minneapolisdə, afroamerikalı Corc Floydun tutulmasının videosu internetdə göründükdən sonra başlayıb.

# Müxalifətin islahatlara ehtiyacı varmı?

*Yaxud, radikalizm dövrü bitib, zaman konstruktivliyindir*

***Ölkəmiz yeni və daha müasir siyasi, sosial, iqtisadi və struktur islahatlarına qədəm qoyub və bu sıralamada ölkədə fəaliyyət göstərən və müxalifət cinahında olan partiyaların yeni dialoq mühitinə dəstək göstərmələri, eyni zamanda radikalizm çağırışlarından imtinanın olunmasıdır. Artıq siyasi islahatların bir qismi icra olunub və buna misal kimi, növbədənkənar parlament seçkilərinin keçirilməsini, eləcə də, müxalifət partiyalarının bir qisminin seçkilərdə qalib gələrək, parlamentdə təmsil olunmalarını göstərmək olar. O cümlədən, ölkədə iqtidar-müxalifət münasibətləri mühitində də bir sıra yeniliklər necə deyərlər, göz önündədir...***




### Radikallardan fərqli olaraq, konstruktiv müxalifət nə düşünür?

Ancaq ortada digər məqam da var - islahatçı hakimiyyətin yeniləşməyə doğru atdığı dinamik addımları ilə yanaşı, struktur islahatlarında da köklü dəyişikliklər etməsi faktı. Bu baxımdan, daim hakimiyyətə qarşı radikal, qaragüruh, məntiqsiz və əsassız ittihamlarla çıxış edən sözdə müxalifət "liderlərinin" həmin yeniləşməyə barmaqrarası baxmaları, yersiz iddialarla gündəmdə qalmaq cəhdləri elə sağlam düşüncəli ictimai rəy tərəfindən normal qarşılanmır. Belə ki, radikal təfəkkürə, dağıdıcılıq düşüncəsinə malik olan sözdə müxalifət anlamalıdır ki, 27 ildir ki, düşərgədə var-gəl edən "liderlər" getməli, onları yeni fikirli, sivil siyasi prinsiplərə malik olan gənclər əvəzləməlidirlər. Ancaq bütün bunların yerinə, radikallar dövlət rəhbərliyi tərəfindən qəbul edilən, xüsusilə xalqın maraqlarına cavab verən qərarlara qarşı mənfur düşüncələrini irəli sürürlər. Çünki yaxşı anlayırlar ki, istənilən qərar fonunda destruktiv baxışlı siyasilər xalqdan heç bir dəstək ala bilməyəcəklər.

### AMİP: "Müxalifətdə də islahatlara zərurət var"

Misal üçün, Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) katibi Əli Orucov dialoq mühitini çox vacib sayır. Onun sözlərinə görə, müxalifətin də özünə görə məsuliyyəti var. "Dialoq mühiti həm də ona görə vacibdir ki, ölkənin problemlərinin həlli, qarşılıqlı etimad və inamın yaranması istiqamətində bir çox maneələri aradan qaldırmaq mümkün olar", deyə qeyd edən AMİP yetkilisi əlavə edib ki, bəziləri - özlərini "ana müxalifət partiyası" kimi təqdim edən "liderlər" yanlış olaraq iqtidar-müxalifət dialoqunu "bazarlaşma" kimi ictimaiyyətə təqdim etməyə cəhd göstərirlər. "Qardaş Türkiyənin təcrübəsindəki iqtidar-müxalifət münasibətləri, iqtidar-müxalifət dialoqu bizim üçün də bir nümunə ola bilər", deyə misal gətirən Ə.Orucova görə, sivil cəmiyyətlərdə bu müzakirələr və problemlərin həlli yolları küçələrdə, meydanlarda, internet resurslarında söyüş və təhqirlərdə deyil, parlamentlərdə, yaxud masa arxasında aparılır: "Təsadüfi deyil ki, Prezident İlham Əliyevin BDU-nun 100 illik yubileyində çıxışı zamanı toxunduğu məsələlərdən biri də bizi istəməyən qüvvələrin Azərbaycana qarşı atdığı və planlaşdırdığı məkrli niyyətləri barədə olub".

AMİP-in funksioneri müxalifətdə də islahatların aparılması vacibliyinə toxunaraq bildirib ki, belə islahatlara ciddi zərurət var.

### AVP: "Bunlar qeyri-real yanaşmalardır"

Bu arada, Ana Vətən Partiyasının (AVP) sədri, millət vəkili Fəzail Ağamalı mətbuata açıqlamasında bildirib ki, dialoqlar keçirilib və artıq növbəti dialoqa ehtiyac yoxdur. Daha dəqiq desək, radikal və dağıdıcı müxalifətin təmsilçilərinin digər məsələlər ətrafında bəyanat səsləndirməsi də yersiz və gülüncdür: "Düşünürəm ki, bunlar qeyri-real yanaşmalardır", deyə F.Ağamalı qeyd edib.

Ənənəvi müxalifətin Azərbaycanda heç bir nüfuzlarının olmadığını da deyən F.Ağamalı onların sosial dayaqlarının demək olar ki, tam sıradan çıxdığını da xatırladıb: "Ancaq bəyanatlarla çıxış edirlər. Son olaraq, mühacir alverində çox ciddi zərbələr aldılar. Əgər bunlar sözün həqiqi mənasında özlərini çox ciddi müxalifət hesab edirlərsə, yanılırlar. Müxalifət düşərgəsində yer alan partiyaların tam əksəriyyəti seçkilərdə iştirak etmək niyyətindədir. Bunu mətbuatdan izləməkdəyik...".

Beləliklə, fikirlər müxtəlif olsa da, fakt budur ki, radikal və dağıcıdılıq təfəkkürünə malik müxalifət reallaşdırılan çoxşaxəli islahatlardan qorxuya düşüb və hətta xalq üçün, dövlət üçün atılan hər bir addımdan qıcıqlanırlar. Normal müxalif düşüncəyə malik olanlar isə, bu addımları dəstəkləyir və boş-boş bəyanatlar yaymağı doğru hesab etmir. Bütün hallarda isə, bu islahatlar nəticə olaraq, köhnəlmiş, naftalin qoxusu verən düşərgənin də sıradan çıxmasına şərait yaradacaq. Çünki ölkəmiz daha yeniləşməyə, daha tərəqqi etməyə doğru yol alıb. Ümumiyyətlə isə, radikalizm dövrü bitib və dövr konstruktivliyindir. Qalır, onların bu islahatlara dəstək vermələrinə ki, artıq bu reallıq da zaman-zaman özünü doğrultmağa başlayıb.

***Rövşən RƏSULOV***

# Təhmasib Novruzov: "Mxalifət funksionerləri boş yerə atılıb düşməklə məşğuldurlar"



***26 ildən artıqdır ki, radikal müxalifət ciddi siyasi fəaliyyət ilə məşğul deyil. Demək olar ki, bu gün radikal müxalifətin əsas fəaliyyəti ancaq ağa qara demək və Azərbaycanı istəməyən qüvvələrin dəyirmanına su tökməkdən ibarətdir. Məhz radikal müxalifət təmsilçiləri bu cür hərəkətlər etməsidir ki, onlar cəmiyyətin gözündən tamamilə düşüblər. Onların bu cür fəallaşması da aydın məsələdir. Yəni özlərini xaricdə olan havadarlarına reklam etmək diqqəti özlərinə cəlb etmək məqsədi dayanır.***

Məsələ ilə bağlı fikirlərini bölüşən "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirdi ki, yerli və xarici maraqlı dairələr Azərbaycan dövlətinin inkişafından qısqanclıq hissi keçirirlər: "Müxalifət öz maraqları üçün çalışır ki, boş qalan ciblərini doldura bilsin. Ümumiyyətlə, müxalifət təmsilçiləri özləri də çox yaxşı bilirlər ki, onların digər seçkilərdə olduğu kimi bu seçkilərdə də qalib olmaq şansları sıfıra bərabərdir. Bir sözlə, AXCP, Müsavat partiyalarının funksionerləri uzun illərdir ki, Azərbaycanın siyasi meydanlarında atılıb düşürlər. Amma onlar əslində bir siyasətçi kimi özlərini təsdiq etməyiblər. Onlar meydanlarda atılıb düşən, siyasətlə məşğul olmaq imitasiyası yaradan adamlardır. Əslində siyasətlə məşğul olmaq, siyasətçi olmaq, siyasi fəaliyyətlə məşğul olmaq tamam başqa bir anlayışdır. Bu siyasi nəzəriyyələri əgər onlar bilmirlərsə siyasi nəzəriyyələrə müraciət etsinlər və baxsınlar. O elimi mənbələrdə bunun açıqlaması göstərilir. Bunların məşğul olduqları tamamilə ilə başqa bir şeydir".

T.Novruzovun sözlərinə görə, müxalifətin məşğul olduqları siyasət deyil: "Görünür onların əlində başqa iş gəlmir. Bu illər ərzində yalnız asan fəaliyyət yolu seçiblər özləri üçün. İqtidarın gördüyü böyük, möhtəşəm işlərə qara yaxmaq, şər-böhtan yağdırmaq və bununla da xaricdə kimlərinsə diqqətini cəlb etmək, gündəmdə qalmaq və belə də yaşamaq onların əsas fəaliyyətləridir. "Siyasi mühacir"lər deyilən şəxslər gəlincə gec-tez onlar layiq olduqları cəzanı alacaqlar. Bu qaçılmazdır. Ümumiyyətlə, müxalifət düşərgəsində təmsil olunan şəxslər reallığı özündə əks etdirməyən xəyallarla yaşayaraq ümid edirlər ki, nə vaxtsa onlar da nəyə isə nail ola biləcəklər. Onların bu arzularının həyata keçməsi mümkün deyil. Çünki həmin qüvvələr xalqın inamını itirmiş yalançılardır. Bu baxımdan da, müxalifəti qara günlər gözləyir. Onlar öz fəaliyyətsizliklərini çox gözəl başa düşürlər. Yəni, müxalifət liderləri başa düşürlər ki, uğursuzluğa düçar olublar və onların cəmiyyətdən heç bir dəstəyi yoxdur. O cümlədən də, müxalifət düşərgəsində fəaliyyət göstərən partiyalar ortaya konkret ideya qoya bilmirlər. Onların ortaya nə isə ideya qoya bilməməklərinin səbəbi odur ki, bu partiyaların əksəriyyəti hansısa ideologiya əsasında formalaşan partiyalar deyil. Həmin partiyalar ayrı-ayrı şəxslər ətrafında formalaşaraq fəaliyyət göstərirlər. Belə olan halda da, sözügedən partiyaların iş fəaliyyəti də həmin şəxslərin şəxsi maraqlarına yönəlir".

***Gülyana***

## Eldəniz Quliyev kimlərə eyham vurdu?: Tərk edin!

Bəlli səbəblərə görə "Milli Şura" sıralarından istefa verən qurumun koordinasiya nərkəzinin sabiq üzvü Eldəniz Quliyev onu istefasına və istefa səbəblərinə görə ittiham edənlərlə əlaqəsinin tamamilə kəsilməsini istədiyini özünün facebook səhifəsində qeyd edib. SİA-nın məlumatına görə, o haqsızlığın, milli-mənəvi dəyərlərin tapdandığı yerdə olanların dostluğundan qalmamasını tələb edib. "Haqqı, ədaləti, ən başlıcası mənəvi dəyərləri tapdayıb tərəf tutanlar, lütfən dostluğumu tərk etsin", Eldəniz Quliyev bildirib.

# Radikal müxalifətin saxta "Cümhuriyyət" sevdasını ifşa edən faktlar

Təqvim ili ərzində bir neçə gün vardır ki, ölkədə özünü müxalifət adlandıran radikal kəsimin yadına həmin günlər ərəfəsində Cümhuriyyət, xüsusilə də Məhəmməd Əmin Rəsulzadə düşəsi olur. Bu adamlar əslində həmin günlərdə gündəmə gələ bilmək üçün özlərini Rəsulzadə ilə reklam etməyə çalışırlar. Nə maraqdırsa, tək Rəsulzadə ilə! Azərbaycan Xalq Cümhuriyyətinin digər qurucularını isə ya heç xatırlamır, ya da ki, xatırlamaq istəmirlər. Bu adamlara ciddi şəkildə Cümhuriyyət dönəmi haqqında bir neçə sual versən əksəriyyəti həmin suallar qarşısında aciz qalarlar. Gəl ki, ümumi sözlər və siyasi maraqları çərçivəsində özlərinə sərf edən formada boş-boş danışır, sanki Rəsulzadənin yaxın qohumları kimi özlərini qələmə verməyə çalışırlar. Daha anlamırlar ki, Rəsulzadə və Cümhuriyyət qurucusu olan digər şəxslər hər bir azərbaycanlı üçün eyni bir dəyərlərdir.

Bu adamlar sadəcə "Cümhuriyyət" və "Rəsulzadə" sözlərindən istifadə edərək siyasi maraqlarını təmin etməyə çalışır, Azərbaycan dövlətini, Azərbaycan iqtidarını Azərbaycan Xalq Cümhuriyyətinə dəyər verməməkdə ittiham etməyə çalışırlar.

Ancaq tarixi faktlar və yaxın keçişimizdə baş verənlər bu adamların yalanlarını üzə çıxarmış olur. Həmin faktlardan bir neçəsini isə qeyd etmək mütləqdir ki, bu anti-milli ünsürlər də görsünlər!




-17 noyabr 1990-cı ildə xalq deputatı Heydər Əliyevin sədrliyi ilə keçən muxtar respublika Ali Məclisinin birinci sessiyasında ilk növbədə "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası"nın adından "Sovet" və "Sosialist" sözləri çıxarıldı, onun "Naxçıvan Muxtar Respublikası" adlandırılması haqqında qərar qəbul edildi. Eyni zamanda, Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin Ali Məclis adlandırılması barədə qərar qəbul olundu. İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi təsis edildi.

- Naxçıvan Ali Məclisinin sədri olarkən ulu öndər Heydər Əliyev 1992-ci ilin mart ayının 22-də Anakarada M.Ə.Rəsulzadənin məzarını ziyarət etmişdi.

Ulu öndər Heydər Əliyev ölkə prezidenti olarkən də dəfələrlə Azərbaycan Xalq Cümhuriyyəti və onun yaradıcıları haqqında öz fikirlərini bölüşmüş, 1998-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş ümumrespublika mərasimin keçirilməsi haqqında Sərəncam imzalamış, çox böyük yubley mərasimi keçirilmiş və mərasimdə ulu öndər Heydər Əliyev geniş və əhatəli nitq söyləmişdi.

- 2007-ci ildə Bakıda İstiqlal abidəsinin açılışı olmuş və prezident İlham Əliyev hər il 28 may Respublika günündə həmin abidəni ziyarət edir.

- Cənab Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik, Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileylərinininin keçirilməsi haqqında Sərəncamlar imzalamış və yüksək səviyyəli yubley tədbirləri keçirilmişdir.

- 2018-ci ildə cənab prezident İlham Əliyevin müvafiq Sərəncamları ilə 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilmiş və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubleyi ölkəmizdə çox geniş formada qeyd olunaraq hər bir sahədə yubley ili çərçivəsində mədəni-kütləvi tədbirlər təşkil olunmuşdur.

- 2018-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilən "Son iclas" bədii-sənədli filmi çəkilmişdir.

Bu yuxarıda qeyd olunanlar ölkəsini, dövlətini sevən bir şəxs kimi xatırladıqlarımdır. Cənab prezident İlham Əliyevin "Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" cümləsini xatırlamaq müstəqil Azərbaycan dövlətinin Azərbaycan Xalq Cümhuriyyətinə verdiyi dəyərlər hqqında sadlanan bu faktlara sanki öz möhürünü vurmuş olur.

Özünü müxalifət adlandıranlar nə ediblər bəs? İldə iki dəfə Novxanıya yürüş edib, Rəsulzadənin büstü qarşısında siyasi maraqları çərçivəsində Azərbaycan dövlətinə qarşı həqarət dolu fikirlər səsləndirmək, Sevinc Osmanqızı kimilərinin maddi maraqları naminə Rəsulzadənin şəkillərini hər hansı bir geyim üzərində 13 avroya satışa çıxarmaq kimi cəhdləri əslində Rəsulzadə və eləcə də Cümhuriyyət qurucusu olan digər şəxslərin ruhlarını incitmək, Azərbaycanın dövlətçilik tarixinə qarşı xəyanət etməkdir.

***Anar Şahmuradov,***
***YAP Ağdaş rayon təşkilatının baş məsləhətçisi***

# Ermənilər Tiflisin "erməni şəhəri" olduğunu "sübut etməyə" cəhd edirlər

***Erməni icması müasir Tbilisidə Avlabarda məskunlaşmışdır. Ermənilər Gürcüstan hesabına da "Böyük Ermənistan" yaratmaq iddiasındadırlar. Onlar Gürcüstanın Samtsxe-Cavaxetiya bölgəsini öz əraziləri hesab edirlər. Abxaz-gürcü münaqişəsində Abxaziyanın hərbi strukturlarına daxil olan "Marşal Baqramyan adına batalyon" gürcülərə qarşı amansızlığı ilə fərqlənmişdir. Ermənilər Tbilisini "itirilmiş erməni şəhəri" hesab edirlər. Ermənilər Gürcüstanın gözəl, şöhrətli paytaxtı Tbilisiyə həsrətlə baxaraq, onu "itirilmiş erməni şəhəri" siyahısına aid edirlər. Azərbaycanın qədim yaşayış məskəni olan Azərbaycan Xalq Cumhuriyyətinin Ermənistana güzəştə getdiyi İrəvanı özlərinə paytaxt etmiş ermənilər Gürcüstanın paytaxtını da özlərininki hesab etməklə, həyasızlığın ən bariz nümunəsini nümayiş etdirirlər.***

Bədnam erməni "tədqiqatçısı" Samvel Karapetyan Tbilisi şəhərinə erməni iddialarını "əsaslandırmaq" üçün 2003-cü ildə İrəvanda Ermənistan MEA "Gitutyan" nəşriyyatında nəşr olunan 128 səhifəlik "Tiflisin (Tbilisinin) merləri" monoqrafiyasını yazmışdır. Əvvəla, xülasədə monoqrafiyanın qədim gürcü şəhəri deyil, "Zaqafqaziyanın əsas şəhərlərindən biri Tiflisin merlərinin tərcümeyi-halından bəhs edildiyi" göstərilir. Sonra isə 800 il (XII əsrdən 1917-ci ilə qədər" Tiflis merliyinin fəaliyyətinin araşdırılması və 47 şəhər merindən 45-nin erməni olduğu "sübut edilir". Monoqrafiyanın "Tiflisin şəhərsalma tarixi ilə məşğul olan həmçinin erməni xalqının görkəmli nümayəndələrinin fəaliyyətinin araşdırılması ilə məşğul olan mütəxəssislər üçün" nəzərdə tutulduğu diqqətə çatdırılır. Müəllif "indiki erməni nəsillərini keçmişdə Tiflisdə erməni xadimlərinin yaratdıqları "əbədi dəyərlərlə" fəxr etməyə, həmin dəyərlərin yaradıcılarını unutmamağa" çağırır.

S.Karapetyan "ermənilərin Tiflisi gürcülərdən qeyri-qanuni yolla deyil, farslardan, türklərdən, almanların əllərindən alın tərilə, zəhmətlə aldıqlarını" iddia edir.

Tiflis əhalisi barədə məlumat verən S.Karapetyan ancaq Yerevanda nəşr olunmuş erməni dilində uydurulmuş "ilk mənbələrə" əsaslanaraq "sübut etməyə" cəhd edir ki, "erməni" əhalisi nəinki yalnız XIX əsrdə, əvvəllər də- lap orta əsrlərdə də Tiflisdə əhalinin əksəriyyətini təşkil etmişdir. Sonra o, 1932-ci ildə Yerevanda erməni dilində nəşr olunmuş Ok.Akopyanın "Yol qeydləri"nə "əsaslanaraq" guya XVI əsr mənbəsi Ramusionun italyan dilindəki nüsxəsindən "iqtibas" gətirir: "Bu vilayətdə Tiflis adlanan gözəl şəhər vardır. Onun ətrafında çoxlu qalalar və qala divarları ilə əhatə olunmuş kəndlər vardır. Orada xristian ermənilər, gürcülər, bir az da "sarasinlər" və yəhudilər yaşayırlar". Yenə də S.Karapetyan Yerevanda uydurulmuş mənbələrə "söykənir". 1976-cı ildə Yerevanda erməni dilində "tərtib edilmiş" "XVII əsr (1629-cu il) erməni əlyazması abidəsi"nin ikinci sayından "iqtibas" gətirir: "Tiflis erməni şəhəridir". Ermənilərin çox güman ki, təhrif etdikləri və 1955-ci ildə İrəvanda nəşr etdirdikləri uydurma mənbələrdən olan "Ermənistan və ermənilər haqqında gürcü mənbələri" əsərinin üçüncü cildindən . S.Karapetyan Gürcüstan şahzadəsi Vaxuştinin 1745-ci ildə yazdığı bir cümləni göstərir: "Tiflisin əhalisi arasında Bərdə və Seyidabadda yaşayan müsəlman farslar, Bərdədən kənarda isə ermənilər üstünlük təşkil edir, gürcülərin sayı isə çox azdır." S.Karapetyan Tiflisdə azərbaycanlıların, türklərin yaşamadığını "sübut etmək" üçün "fars-müsəlman" ifadələrindən istifadə etmişdir. Halbuki Tiflisdə və onun ətrafında - Təhlə, Qaracalar, Kaspi bölgələrində tarixən azərbaycanlılar yaşamış, XVII əsrdə Şah Abbas Gürcüstanı işğal edərkən özü ilə gətirdiyi mübariz azərbaycanlı tayfaları da Tiflis ətrafında yerləşdirmiş, onlar sonralar yerli azərbaycanlılarla qaynayıb-qarışmışlar.

S.Karapetyan XIX-XX əsrin əvvəllərinədək tərtib etdiyi ermənisayaq cədvəllərində Tiflisdə 1848-ci ildən 1916-cı ilə qədər guya ermənilərin 46,1-40,9%, gürcülərin 24,8-10,8%, rusların 20,7-22,0%, digər xalqların 7,2-19,4% təşkil etdiyini "sübut edir".

Sovet dövründə Tiflisin əhalisinin xüsusi çəkisində ermənilərin azalmasından "təəssüflənən" S.Karapetyan 1979-cu ildə Tiflisdə 153000 erməni (14,0%), 653000 gürcü (62,0%), 129000 rus (12,0%) yaşadığını, burada digər millətlərin olmadığını "qeyd edir". Halbuki Tbilisidə indi də xeyli sayda azərbaycanlılar yaşayırlar.

Vaxtı ilə dar küçələri, palçıqlı yolları olan Tiflis Rusiya canişini general Yermolovun sayəsində sırf Asiya şəhərindən yarı Avropa şəhərinə çevrildi.1840-1864-cü illərdə Tiflisdə yeni idarəetmə sistemi, ictimai idarəçilik tətbiq edildi. Bunun təşəbbüskarı Əlahiddə Qafqaz korpusunun komandanı və Qafqaz mülki idarəsinin sədri Y.A.Qolovin idi.

1847-ci ildə Gürcüstan canişini M.Vorontsovun təşəbbüsü ilə şəhər idarəçiliyi sistemində dəyişiklik edilərək oraya yeni inzibati orqanlar əlavə edildi. Rusiyanın erməniləri Qafqaza, o cümlədən Tiflis quberniyasına və Tiflisə köçürülməsi nəticəsində onların sayı yerli millətlərə nisbətən artdı. Ona görə də Tiflis də daxil olmaqla Tiflis quberniyasında ermənilərin sayı 558000 nəfər, azərbaycanlıların sayı isə 63000 nəfər oldu.

S.Karapetyan Tbilisini-Tpxisi bütün Qafqazın və Zaqafqaziyanın, həmçinin eyni mənada Ermənistan (?) və Gürcüstanın paytaxtı hesab edir. 1858-ci ildə Tiflisin nisbətən inkişaf etməsini göstərən S.Karapetyan yenə saxta erməni mənbələrinə istinad edir. Onun saxta istinadında oxuyuruq: "Tiflisi yaxud bizim dildə (erməni dilində-V.Ö.) Tpxisi indi bütün Qafqazın və Zaqafqaziyanın, həmçinin eyni mənada Ermənistan (?) və Gürcüstanın paytaxtı hesab etmək olar". Bu əsl saxtakarlıqdır. Tiflisi Gürcüstanla yanaşı mövcud olmayan Ermənistanın da paytaxtı hesab etmək əsl cəfəngiyyatdır.

1860-cı ildə Tiflisin inkişafı ilə yanaşı, şəhər idarəetmə sisteminin tərkibi yeni vəzifələrlə şəhər idarəetmə katibi, şəhər rayonları komissarları vəzifələrilə zənginləşdi. Bu idarəetmə forması 1867-ci ilə qədər mövcud oldu. Lakin ermənilərin yüksək vəzifə tutmalarını mənbələr təsdiq etmir. T.Svyatoxovski onların "idarəçiliyin aşağı pillələrində yer tutduqlarını" göstərir: "Çar məmurlarının apardığı mərkəzləşmə və ruslaşdırma siyasəti arasındakı oxşar uyğunluq 1860-cı illərdə yenidən bərpa oldu... Bu bürokratik idarəetmə aparatının aşağı pillələrində qərar tutmuş yerli kadrların (o cümlədən gürcülərin və azərbaycanlıların-Ö.V.) çox güclü ixtisarı ilə nəticələndi və ərazinin idarə olunmasında əksər mövqelər rus və ermənilərin əlinə keçdi. III Aleksandrın hakimiyyəti dövründə bu hadisələr özünün ən yüksək zirvəsinə çatdı. Göründüyü kimi, S.Karapetyanın uydurduğu kimi ermənilər yüksək pillələrdə deyil, aşağı pilləiərdə vəzifələr tuturdular. Ancaq o, 1875-ci ildə "təkcə merlərin deyil, şəhər idarəsinin əksər üzvlərinin də ermənilərdən ibarət olduğunu" sayıqlayır.

1880-1890-cı illərdə Tiflis şəhər idarəsində (dumasında) milli münasibətlərdən bəhs edən erməni tarixçisi yenə ermənilərin üstün mövqe tutmasından bəhs edir.Erməni əsilli Q.Tumanov "Qafqazda şəhər özünidarəsi haqqında qeydləri" əsərində Tiflisdə ermənilərin əhalinin 47 % ni təşkil etdiklərini şəhər şurasında səslərin 72% nə malik olduqlarını iddia edir. Digər bir erməni saxta tarixçisi K.Turyan ermənilərin şəhərdəki say üstünlüyünü pulun ermənilərin əlində cəmləşməsilə əlaqələndirir: Ticarət və faydalı pullu müəssisələr onların (ermənilərin-V.Ö.) əllərində idi. Tiflisin erməni pul maqnatları hər hansı bir pul müəssiəsinin ətrafına toplanırdı.

Onların iddiasına görə guya Tiflis bankları ermənilərin pulları hesabına fəaliyyət göstərirdi. "Tiflis kommersiya bankı", "Qarşılıqlı kredit cəmiyyəti", "Şəhər kredit cəmiyyəti", "Şəhər yanğından mühafizə sığortası cəmiyyəti"ni guya ermənilər yaratmışdılar, onlar guya həmin müəssisələrin səhmdarları idilər".

Bu saxta erməni tarixçiləri Tiflis meri ilə yanaşı, şəhər şurasının əksər üzvlərinin erməni olduğunu uydururlar. XIX əsrin 90-cı illərində şəhər seçkilərində erməni və gürcü-rus qruplaşmaları arasında münasibətlərin kəskinləşdiyi göstərilir. Erməni "tədqiqatçıları" bunu seçkilərdə ermənilərin çox səs toplaması ilə izah edirlər. Bizim fikrimizcə isə, ermənilərin seçkilərdə saxtakarlıqlarına qarşı ruslarla gürcülər birgə mübarizə aparırdılar.

Gürcülərin Tiflisdə nəzərəçarpacaq dərəcədə az olmasını erməni tarixçisi Q.Tumanov özünəməxsus, ermənisayağı şərh edir. "Gürcü kartlilər və gürcü-kaxetiyalılar arasında şəhərlilərin sayı az idi. Onlar torpaq və silah adamları idilər. Kənd təsərrüfatı və hərbi xidmət Şərqi Gürcüstan əhalisinin əzəli və sevimli məşğuliyyəti idi. Zaman çox şeyi dəyişdi: gürcü əhalisinin müxtəlif siniflərindən bir çoxy buruaziyanın məlum elementinə çevrildi. İndi komersant gürcülərə, azad peşə sahibi olan adamlara rast gəlmək olur. Lakin onlar çox azdır. Onların əksəriyyəti hətta Tiflisdə seçki senzinə malik deyildirlər". Buna görə də gürcülər guya şəhər meri vəzifəsinə nadir hallarda seçilirdi.

Gürcü mənbələri Tbilisiyə dair erməni tarixçilərinin bütün baxışlarını alt-üst edir. Qədim gürcü salnaməsində hələ IV əsrdə Tbilisinin möhkəmləndirilmiş şəhər olduğu və Şərqi Gürcüstan çarı Varaz-Banurenin iqamətgahı olduğu göstərilir. Akademik Canişia hələ o vaxtlar şəhərin inzibati-təsərrüfat, hərbi strateji əhəmiyyət

kəsb etdiyini qeyd edir, Tbilisidə V-VI əsrlərdə çar Vaxtanq Qarqasal və onun oğlu Daçi şəhərdə tikinti aparmış, şəhər divarlarını möhkəmləndirmişlər. Hələ VI əsrdə Bizans tarixçisi Feofana 571-ci ildə gürcülərin farslara qarşı üsyanından bəhs edərkən yazmışdır: "İberlərin paytaxtı Tiflis idi"

VII əsrdə Tbilisiyə Şərqi Gürcüstan feodal knyazı başçılıq edir. VII əsrdə ərəblər tərəfindən işğal olunmuş Tbilisidə Əmirlər otururdu.Akademik Canaşia hələ X əsrdə erməni yazıçısı Uxtanesin Tbilisini Gürcüstanın "böyük paytaxtı" olduğu fikrini diqqətə çatdırır .

X əsrin ortalarında Tbilisi əmirləri müstəqil feodallara çevrilirlər. Tbilisi 1122-ci ildə Gürcüstana birləşdirilib və IV Qurucu David öz iqamətgahını Kutaisidən Tbilisiyə köçürüb.

S.Karapetyanın "bərbad zibilli" hesab etdiyi Tbilisi, hələ "XI-XIII əsrlərdə geniş meydanları, möhkəmləndirilmiş divarları, bürcləri və qalaları olan şəhər idi. Mənbələrdə Dəriğəli və İsani iç qalaları, istehkamları, skalkinika və Tabori bütrcləri İsanidə Kürdən keçən körpülər xatırlanır. Əsas çar sarayı İsanidə yerləşirdi". İsani ermənilərin daim xatırladığı Avlabardır. Amma gürcü tarixçisi akademik S.Canaşia göstərir ki, "İsaaninin" də, "Ablabarın" da qədim adları ərəb mənşəlidir. İsani "saray ətrafı", Ablabar isə "istehkam, iç qala", "bürc" deməkdir. Şübhəsiz ki, ermənilər Ablabara XIX əsrdə ruslar tərəfindən köçrülmüş və orada yerləşdirilmişlər.

XII-XIII əsrlərdə Tbilisi inkişaf edərək Yaxın Şərqin əsl iri şəhərlərindən birinə çevrildi. Buna görə də Roma papası XXII İoann Gürcüstan çarlığının paytaxtı Tefelisi ən yaxşı, əhalisi çox, varlı, rahat məşhur şəhər hesab etdiyindən katolik yepiskopluğunun iqamətgahını Stirnıdan Tbilisiyə köçürdü.

XVII əsrdə Tiflisdə oturan Kartli çarı İran şahınn vassalı olduğundan Tbilisinin bəzi səyyahları və tədqiqarçılar onu İran şəhərlərindən biri kimi təqdim edirdilər. Məşhur fransız botaniki Turnefarun verdiyi məlumata görə 1700 -cü ildə Tiflisdə 20 minə yaxın əhali yaşayr, 12 kilsə və 2 məscid var idi. Kilsələrin əksəriyyəti gürcü,biri isə erməni və katolik kilsələri idi.

"XVIII əsrin 60-cı illərində Tbilisi birləşmiş Kartli-Kaxetiya çarlığının paytaxtı olur. Çar II İrakli şəhərin iqtisadi və mədəni yüksəlişinə nail oldu"

S.Karapetyan Tiflisdə İrəvan qapısının olduğunu iddia edir. Akademik S.Canaşia isə yazır: "Bu şəhər daş divarla əhatə olunmuş və 6 qapısı var idi (Diqomi, Kocori, Çay, Hamam, Gəncə, Qars qapıları)".

1840-cı ildə Tbilisi Zaqafqaziya diyarının inzibati mərkəzi oldu və 1845-1917 -ci illərdə Qafqaz canişininin qərargahı olaraq qaldı. Tiflis feodal şəhərindən Avropa burjua tipli şəhərə çevrilsə də öz köhnə spesifik xüsusiyyətlərini saxladı.

1886-cı ilin fevralın 24-də Rusiya Nazirlər Şurasının qərarı ilə Zaqafqaziyada keçirilən siyahıyaalma zamanı Tiflisdə əhalinin milli şəraiti, əqidəsi, ictimai mövqeyi haqqında məlumat verilir. Bu siyahıyaalmanın keçrilməsinə Qafqazın mülki hissəsinin baş rəisi, general-adyudant, knyaz A.M. Dondukov-Korsakov rəhbərlik etmiş, prosesdə vilayət qubernatorları və rəisləri də fəal iştirak etmişlər.

Tiflis quberniyasında aparılan siyahıyaalmada Tiflis şəhərində 78445 nəfərin yaşadığı məlum olmuşdur. Həmin mənbədə quberniya şəhəri Tiflisdə 43822 nəfər kişi, 34623 nəfər qadın yaşayırdı. Məlumatlarda 1876-cı il və 1886 -cı il siyahıyaalmalarının məlumatları verilmişdir.

1876-cı ildə Tiflisdə rusların (maloruslar), bolqarlar, çexlər və slovaklarla sayı 19617 nəfər 1886-cı ildə 36113 nəfər, müvafiq olaraq gücülərin sayı 21542 nəfər və 38357 nəfər azərbaycanlıların sayı (mənbədə "Aderbaycan tatarları" adlanır) 2186 və 2505 nəfər, köçürülmüş ermənilərin sayı 37308 nəfər olmuşdur.[11] Tbilisidə XIII əsrdə 100 mindən artıq əhali yaşayırdı. Şəhərdə XVIII əsrin əvvəllərində 20 min, XIX əsrdə 25 min, 1865-ci ildə 71 min, 1886-cı ildə 78 min, 1897-ci ildə 161 min nəfər əhali yaşayırdı, XX əsrin 30 -cu illərində sovet dövründə Tbilsinin əhalisinin sayı 519 175 min nəfərə çatdı.

Tiflisdə pravoslavlar, təriqətçilər, erməni qriqoryanlar, erməni-katoliklər, Roma katolikləri, lüteranlar, müsəlmanlar, hestorianlar və ieduistlər yaşayırdılar.

Müasir Tbilisinin qədim hissəsi kiçik bir ərazini tutur. XVIII əsrin 30-cu illərində gürcü tarixçisi və coğrafiyaçısı Vaxuşti Baqrationu onun dəqiq planını tərtib etmişdir. Vaxuştinin məlumatına görə, qədim Tbilsi üç hissədən ibarətdir: onlardan biri Qala, ikincisi Seydabad, üçünsüsü İsna (XIV əsrdə Ablabar adlanıbdır) Qalanın cənub hissəsində Narınqala istehkamı, Şahtaxtı qalası, Qala meydanı yerləşir". Qədim Tbilsinin ikinci hissəsi Seyidabad XVIII əsrdə Səfəvi şahı şah Səfi burada seidlərin yerləşdiyindən belə adlanmşdır.Şəhərin üçüncü hissəsi İsanidən körpü vasitəsilə Kürün əks tərəfi ilə əlaqə saxlanırdı.

Beləliklə, o əssasız uydurma erməni mənbələrinə əsaslanan saxtakar erməni tarixçiləri qədin Gürcüstanın əzəli paytaxtı Tbilisi şəhərinə iddia edir, onu yalançı erməni termini ilə əvəz edir, demoqrafik, tarixi təhriflərə yol verərək "erməni şəhəri" olduğunu "sübut etməyi" cəhd edirlər. Tarix və mənbələr ilə bu qədim şəhərin gürcü şəhəri olduğunu,..Bir çox millətlərin, o cüməl追dən azərbaycanlıların buraya tolerant mühitdə gürcülərlə mehriban bir ailə kimi yaşadığını təsdiq edir. Ermənilər isə bunun qafqaza həmçinin Tiflisə XIX əsrdə ruslar tərəfindən köçürülmüş, gəlmə xalq olmuş, bütün dünyada olduğu kimi bu bölgədə də "xəstə ermənilik" ideyasını reallaşdırmaq xəyali "Böyük Ermənistan" yaratmaq planlarına nəinki Tiflisi, Tiflis ətrafını, hətta Borçalı zonasını da daxil etmişlər.

***Vahid Ömərov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru. dosen***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

**2 iyun**

## Son səhifə

## Həkimdən CİDDİ XƏBƏRDARLIQ: Dondurma təhlükəli məhsuldur!

***Yetkin insanın gün ərzində yeyə biləcəyi optimal dondurma porsiyası açıqlanıb. Rusiya mətbuatı xəbər verir ki, ENT klinikasının rəhbəri Vladimir Zaitsev bu soyuq deserti hər gün yeməyin təhlükəli olması barədə xəbərdarlıq edib. Həddən artıq dondurma yemək faringit, tonzillit, laringit və rinosinusitə səbəb ola bilər. Bundan əlavə, şokoladlı dondurma yüksək kalorili hesab olunur, onun yüz qramında demək olar ki, 300 kalori var.***

Həkimin sözlərinə görə, isti iqlim zonasında yaşamayan insanlar hər gün dondurma yeyə bilməz. Yetkinlər üçün norma həftədə iki dondurmadır.

Zaitsev dondurmanı olduqca təhlükəli məhsul kimi qələmə verib. O, iltihab riskini minimuma endirmək üçün bu deserti bir qədər əridib və ya isti bir şeylə yeməyi tövsiyə edib. Məsələn, isti çay. Soyuq dondurma və isti çay boğazda təzad yaradacaq ki, bu da xəstələnmə ehtimalını azaldır. Bu deserti sürətlə yeyib bitirməyə çalışmayın, əks təqdirdə diş və diş ətlərini aşındıra bilərsiniz. Bu da trigeminal nevrit üçün təhlükə yaradır. Başlıcası kondisionerli otaqda dondurma yeməyin./publika.az



## Formula 1: “Williams” komandası satışa çıxarılıb

***Formula 1 çempionatının “Williams” komandasının rəhbərliyi, gözlənildiyi kimi, koronavirus pandemiyası fonunda yaranan maliyyə problemləri səbəbindən idarəetmə strategiyasına yenidən baxılacağını elan edib.***

AZƏRTAC xəbər verir ki, komandanın sahibinin tamamilə dəyişməsinə hazırdırlar və artıq axtarışa başlayıblar. Yeni strategiya çərçivəsində titullu sponsor “ROKit” və onun törəmə şirkəti olan “ROK Drinks” şirkəti ilə 2023-cü ilədək müqavilə olmasına baxmayaraq, bundan sonrakı əməkdaşlıqdan imtinaya qərar verilib.

“Williams”ın rəsmi bəyanatında deyilir: “WGPH”nin [Williams Grand Prix Holdings] Direktorlar Şurası müxtəlif strateji variantları gözdən keçirir. Mümkün variantlar sırasına şirkət üçün yeni pul vəsaitinin cəlb edilməsi, “WGPH”nin minoritar səhm paketinin və ya “WGPH”nin nəzarət səhm paketinin satışı, o cümlədən bütün şirkətin potensial satışı da daxildir. Hələlik qəti qərar qəbul edilməməsinə baxmayaraq, şirkət danışıqları yüngülləşdirmək məqsədilə satış prosesinə başlamağı rəsmi şəkildə elan edir. Bizə rəsmi şəkildə hələ ki, müraciət olunmayıb. Belə təklif gələcəyinə və hansı şərtlərin təqdim ediləcəyinə əminliyimiz yoxdur. “Williams Grand Prix Holdings”in idarə heyəti hər cür təklifdən imtina etmək və danışıqları dayandırmaq hüququnu özündə saxlayır”. Komandada onu da qeyd ediblər ki, “Williams”ın 2020-ci il mövsümündə iştirakına heç bir təhlükə yoxdur.




## “Niva”dan mobil telefon oğurlayan şəxs yaxalanıb



Mayın 31-də Sabunçu qəsəbəsi ərazisində “Niva” markalı avtomobildən 600 manat dəyərində mobil telefon oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş V.İsmayılov Sabunçu Rayon Polis İdarəsinin 12-ci polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yaxalanıb. Faktla bağlı araşdırmalar davam etdirilir.

## “Neftçi” Anton Krivotsyukla yeni müqavilə imzalayıb

Bakının “Neftçi” futbol klubu müdafiəçisi Anton Krivotsyukla yeni müqavilə imzalayıb. Bakı təmsilçisinin rəsmi “Facebook” səhifəsində yer alan məlumatda deyilir ki, 21 yaşlı müdafiəçinin yeni müqaviləsi 2022-ci il mayın 31-dək nəzərdə tutulub. Qeyd edək ki, millimizin üzvü cari mövsümdə “Neftçi”nin heyətində keçirdiyi 24 oyunda və 4 qol vurub.




## Ebru lüks saatı ilə gündəmə damğa vurdu

***Şəxsi həyatı ilə Türkiyə mətbuatının gündəmindən düşməyən müğənni Ebru Gündeş lüks və bahalı saatı ilə diqqət mərkəzinə düşüb. “Hürriyet”nəşri sənətçinin “Patek Philippe” brendinə məxsus “Nautilus” modelli saatı barədə məlumat dərc edib.***

1976-cı ildə marka tərəfindən istehsal edilənklassik tərzlisaat polad, qızıl vəağ qızıl metalından hazırlanıb. E.Gündeşin dəbdəbəli aksesuarınındəyəri 175 min manatdır.



## Keçmiş məhkumun evindən narkotik vasitələr götürülüb

Daxili işlər orqanlarının əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsi, həmçinin kultivasiya yolu ilə yetişdirilən narkotik tərkibli bitkilərin aşkarlanması istiqamətində qətiyyətli tədbirləri davam etdirirlər.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət Axtarışı İdarəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Binəqədi qəsəbəsində yaşayan, əvvəllər məhkum olunmuş R.Bikkulovun evinin zirzəmisindən 10 qramdan artıq çətənə toxumu, 250 qram qurudulmuş çətənə və kultivasiya yolu ilə yetişdirilmiş 27 ədəd çətənə kolu aşkar edilərək götürülüb. Faktla bağlı araşdırma aparılır.

## Çağla Şikel villasını satışa çıxarıb

Türkiyənin ən çox qazanan modellərindən olan Çağla Şikel villasını satışa çıxarıb. SİA-nın türk mətbuatına istinadən verdiyi xəbərə görə, sənətçi 800 kvadratmetr olan 9 otaqlı evini 11 milyon liryə satır. O, bunu uşaqlarının istəyi ilə edir. Model yeni hovuzu olan villa almaq niyyətindədir. Qeyd edək ki, Çağla beş ildir bu evdə yaşayırdı.

## Təbrik edirik!

*Natiq Cavadovu ad günü münasibəti ilə anası Zəminə xanım, ailə üzvləri, yaxın qohumları ürəkdən təbrik edir, ona uzun ömür, can sağlığı arzulayırlar. Arzu edirlər ki, Xoşbəxt və Səadət dolu günlər bir ömür yol yoldaşı olsun!.*




**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600